**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN SƏRBƏST ŞEİRİNİN TƏŞƏKKÜLÜ, İNKİŞAF MƏRHƏLƏLƏRİ VƏ PROBLEMLƏRİ

İxtisas: 5716.01 – Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: Gültəkin Ağacan qızı Əliyeva

Elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyasının

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun XX əsr (sovet dövrü) Azərbaycan ədəbiyyatı şöbəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi məsləhətçi: | filologiya elmləri doktoru, professor<br>**Bədirxan Balaca oğlu Əhmədov** |
| Rəsmi opponentlər: | AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor<br>**Teymur Həşim oğlu Kərimov** |
| | filologiya elmləri doktoru, professor<br>**Rafiq Yusif oğlu Əliyev** |
| | filologiya elmləri doktoru, professor<br>**Yaqub Məhərrəm oğlu Babayev** |
| | filologiya elmləri doktoru, dosent<br>**Elnarə Seydulla qızı Akimova** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.05 – Dissertasiya şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri:<br>______________________ | akademik, filologiya elmləri doktoru, professor<br>**İsa Əkbər oğlu Həbibbəyli** |
| Dissertasiya şurasının elmi katibi:<br>______________________ | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**İsmixanMəhəmməd oğlu Osmanlı** |
| Elmi seminarın sədri:<br>______________________ | filologiya elmləri doktoru, dosent<br>**Əlizadə Bayram oğlu Əsgərli** |

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Artıq iki əsrə yaxındır ki, ayrı-ayrı adlarla (futurizm, azad şeir, verlibr və s.) adlandırılan sərbəst şeir bütün dünyada geniş yayılmış və ən populyar poetik formalardan biri olmuşdur. Hər bir xalqın özünün milli poetik formaları olmasına baxmayaraq, bu şeir formasında birləşirlər. Bu cəhətdən sərbəst şeir həm də hər bir xalqın milli poetik formasına çevrilmişdir. Bu poetik forma yarandığı vaxtdan fransız, alman, ingilis, rus, polyak, türk və başqa xalqların da ədəbiyyatına daxil olaraq özünə mühüm yer tutmuşdur. Dünya poeziyasında özünəməxsus inkişaf yolu keçərək E.Verxarn, V.Uitmen, Pablo Neruda, V.Nezval, N.Hikmət kimi nümayəndələri ilə məşhurlaşan sərbəst şeir XX yüzilliyin 20-ci illərindən sonra Azərbaycan şeirinin də ən çox istifadə edilən formalarından biri olmuşdur.

XX əsr Azərbaycan poeziyasının ən böyük hadisələrindən biri milli ədəbiyyatda sərbəst şeirin yaranması və az bir vaxtda yeni bir poetik forma kimi özünü təsdiq etməsi olmuşdur. Bu inkişaf yoluna nəzər salarkən 30-cu illərin sonlarına doğru sərbəst şeirin ədəbi prosesdən çəkilməsi prosesi baş verir. Əgər 20-ci illərin sonlarına doğru sərbəst poeziyaya bir axın hiss olunurdusa, 30-cu illərin sonlarında sərbəst şeirin özünün gələcək həyatı sual altına alınmış olur. Bunun müəyyən obyektiv və subyektiv səbəbləri var idi; bunlardan biri, ümumittifaq miqyasında sərbəst şeirçilərin mövqeyinin zəifləməsi idi. Azərbaycan sərbəst şeiri 50-ci illərin sonlarından başlayaraq 60-cı illər də daxil olmaqla yeni bir inkişaf təmayülü ilə səciyyələnir və bir hərəkat halını alır.

Problemin aktuallığını səciyyələndirən xüsusiyyətlərdən biri sərbəst şeirdə baş verən mərhələ və problemlərin təhlili, onun nəzəri kontekstdə inkişaf mərhələlərini, burada baş verən ciddi keyfiyyət və mahiyyət dəyişikliyini araşdırmaq, məhz bu dəyişiklik nəticəsində yeni üslub, yeni qəhrəman, bədii təsvir və ifadə vasitələrinin yenilənməsidir. Mövzunun aktuallığını şərtləndirən amillərdən biri uzun müddət ədəbi tənqidin və ədəbiyyatşünaslığın mübahisə predmeti olan sərbəst şeirin inkişaf yolu, mərhələ və problemlərini yeni istiqamətdə sistemli şəkildə araşdırmaqdır.

Bu poetik forma milli poetik arenaya daxil olduğu dövrdən onun xüsusiyyətləri haqqında da müəyyən fikirlər söylənmiş, nəzəri məsələlərinə aid məqalələr yazılmışdır. Bu proses sərbəst şeirin ədəbi prosesə daxil olduğu vaxtdan start götürmüşdür. Sərbəst şeir haqqında yazılan araşdırmaları özünün məzmun və xarakterinə görə üç yerə bölmək olar:

1. Sərbəst şeirin ədəbi prosesdəki rolu barədə ədəbi tənqidin yazdıqları
2. Sərbəst şeirin nəzəri məsələləri. Burada yalnız Azərbaycan sərbəst şeirinin deyil, ümumən sərbəst şeirin nəzəri məsələləri
3. Sərbəst şeirin inkişaf yolu, problemləri və nümayəndələrinin yaradıcılığının ədəbiyyatşünaslıqda araşdırılması

Sərbəst şeirin nəzəri və praktik məsələləri 50-ci illər ədəbi prosesinin də diqqət mərkəzində olmuş, haqqında bir çox məqalələr yazılmış və araşdırmalar aparılmışdır. Məmməd Cəfər Cəfərovun "Şeirimizin dili və vəzni haqqında"[1], Əkbər Ağayevin "Azərbaycan sovet poeziyası" və s. məqalə və tədqiqatlarında sərbəst şeirin nəzəri və praktik problemləri araşdırma obyekti olur.[2] Bu poetik forma nəzəri cəhətdən sistemli şəkildə nəzəriyyəçi alim Məmməd Əliyev tərəfindən də araşdırılmışdır. Onun "Azərbaycan şeirinin qafiyə zənginlikləri", "Azərbaycan şeirinin ritm vasitələri. Alliterasiya", "Azərbaycan şeirində paralellizm probleminə dair", "Azərbaycan şeir sənəti", "Ədəbiyyat nəzəriyyəsi" və s. araşdırmalarında sərbəst şeirin bir çox nəzəri məsələlərinə də münasibət bildirilir.[3]

Sərbəst şeir Azərbaycan poeziyasında vətəndaşlıq hüququ qazandıqca ədəbiyyatşünaslığın da araşdırma orbitinə daxil olmuş, inkişaf yoluna aid ilkin tədqiqatlar aparılmışdır. Ədəbiyyatşünas Arif Abdullazadənin "Şairlər və yollar" monoqrafiyasında Azərbaycan

---

[1] Cəfərov, M.C. Şeirimizin dili və vəzni haqqında Füzuli düşünür //– Bakı: -Elm, – 1959. – s. 206-223

[2] S.Ağayev, Ə. Azərbaycan sovet poeziyası (1920-1970). İnkişafın əsas meylləri // –Azərbaycan, 1974, №3, – s. 178-194.

[3] Əliyev, M. Azərbaycan şeirinin qafiyə zənginlikləri // – Ulduz, -1982, № 6. s. 51-54; Azərbaycan şeirinin ritm vasitələri. Alliterasiya/ – AMEA Xəbərləri. Dil, ədəbiyyat, incəsənət seriyası, – 1982, № 3. – s. 86-90; Azərbaycan şeir sənəti //– Bakı: – Nurlan, – 2000. -184 s.; Ədəbiyyat nəzəriyyəsi //– Bakı: – Elm və təhsil, – 2012. 480 s.

sərbəst şeirinin inkişaf yollarına nəzər salınır, Rəsul Rza və Nazim Hikmət yaradıcılığında vəznin mahiyyəti, xarakteri və ifadə imkanları tədqiq edilir. Yenə də Arif Abdullazadənin "Od nə çəkdi" monoqrafiyası Azərbaycan sərbəst şeirinin görkəmli nümayəndəsi Rəsul Rzanın yaradıcılığına həsr edilmişdir.[4] Sərbəst şeir problemləri ədəbi tənqidin daimi araşdırma obyektlərindən olmuşdur. Ədəbiyyatşünas və tənqidçilərdən İsa Həbibbəyli[5], Nazif Ələkbərli[6], Şirindil Alışanlı[7], Vaqif Yusifli[8], Tehran Əlişanoğlu[9], Bədirxan Əhmədli[10], Cavanşir Yusifli[11], Şirvan Ədilli[12], Natiq Atabəyli[13] və b. tədqiqatlarında sərbəst şeirin yaranması, forma və struktur problemləri, tarixi inkişaf yolu ilə bağlı bir çox fikirlər söylənmişdir. Sərbəst şeirin mahiyyəti, strukturu, daxili ahəngi, vəzni, forması və s. haqqında epizodik şəkildə nəzəri araşdırmalar aparılmış, poeziya sənətinin ümumi ahəngində tutduğu yeri və mövqeyini qiymətləndirməyə çalışmışlar. Azərbaycan ədəbiyyatşünaslığında sərbəst şeirin nəzəri məsələlərinə aid Musa Adilov, Ağamusa Axundov, Sərxan Abdullayev kimi tədqiqatçıların araşdırmaları nəzəri xarakteri ilə diqqəti cəlb edir. Sərxan Abdullayevin "Dil və bədii qavrayış"[14], Musa Adilovun "Alliterasiya"[15], Ağamusa

---

[4] Abdullazadə, A. Şairlər və yollar //–Bakı: Elm, -1984. -224 s.; Od nə şəkdi. –Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, -1990. -282 s.

[5] Həbibbəyli, İ. Milli sərbəst şeirin üvertürası //– Azərbaycan, -2020, 19 may. -s. 6.

[6] Ələkbərli, N. Sərbəst şeir haqqında üçüncü söz //– Ulduz, -1993, №3-4. s. 49-52

[7] Alışanlı, Ş. Ədəbi-bədii düşüncənin sərhədləri //–Bakı: Sabah, -2010. -360 s.

[8] Yusifli, V. Poeziyanın yolları və illəri (1960-2000-ci illər) //–Bakı: -Mütərcim, -2009. -404 s.

[9] Əlişanoğlu, T. Şeirimizin gümüş dövründən fraqmentlər //–Tənqid.net, -2011, №8. -s. 145-162.

[10] Əhmədov, B. XX yüzil Azərbaycan ədəbiyyatı. Mərhələlər, problemlər, istiqamətlər //–Bakı: -Elm və təhsil, -2015. -576 s.;

[11] Yusifli, C. Azərbaycan poeziyasının Əli Kərim mərhələsi -Bakı: -Adiloğlu, ─ 2005. ─ 176 s.; Ədilli, Ş. Azərbaycan şeirində forma məsələləri //– Bakı: -2014. -156 s.

[12] Ədilli, Ş. Azərbaycan şeirində forma məsələləri //–Bakı: ─ 2014. -156 s.

[13] Atabəyli, N. Azad şeir və onun poetikası // – Bakı: -Step, -2017. -350 s.

[14] Abdullayev, S. Dil və bədii qavrayış //–Bakı: Yazıçı, -1989. -167 s.;

[15] Adilov, M. Alliterasiya. Azərbaycan dilinin üslubiyyatı/–Bakı: Maarif, ─ 1970, 320 s.;

Axundovun "Şeir sənəti və dil"[16], Xasay Cabbarovun[17] "Sənətkar, söz, üslub" və s. araşdırmalarında sərbəst şeirin dil və üslub problemlərinə də toxunulmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi sərbəst şeirin Azərbaycan poeziyasındakı yerini, tarixini, inkişaf yolları və mərhələlərini araşdırmaqdan ibarətdir. Problem bu dövrdə yazıb yaradan onlarla şairlərin ən yaxşı sərbəst şeir nümunələri əsasında araşdırılır. Problemlə bağlı aşağıdakı mühüm məqsəd və vəzifələrin yerinə yetirilməsi də nəzərdə tutulmuşdur:

-Sərbəst şeirin dünya ədəbiyyatında yaranması tarixi və nəzəri məsələlərinə nəzər yetirmək;

-Azərbaycan poeziyasında sərbəst şeirin yaranması prosesini, tarixini, inkişaf yolunu təhlil etmək;

-Sərbəst şeirin ilkin axtarış mərhələsi və formalaşma prosesini təhlil etmək;

-Azərbaycan sərbəst şeirinin poeziyadakı yerini və mövqeyini müəyyənləşdirmək;

-Azərbaycan sərbəst şeirinin keçdiyi yolu və mərhələlərini araşdırmaq və mərhələ təsnifatını müəyyənləşdirmək;

-Azərbaycan sərbəst şeirinin Rəsul Rza və Əli Kərim mərhələlərinin xüsusiyyətlərini müəyyən etmək;

-60-cı illər sərbəst şeirində assosiativlik və intellektuallıq xüsusiyyətlərini araşdırmaq;

-Müstəqillik ərəfəsi və dövrü sərbəst şeirinin inkişaf yolu və problemlərini araşdırmaq;

- Çağdaş sərbəst şeirdə modernizm və postmodernizmin təzahürlərini təhlilə cəlb etmək; və s.

**Tədqiqatın metodları.** Tədqiqat işində sərbəst şeir problemi ilə bağlı ədəbi, bədii, elmi-nəzəri materialların araşdırılmasında tarixi-xronoloji, analitik-tipoloji, eləcə də, estetik, ideya-bədii təhlil üsuluna üstünlük verilmiş, xronoloji, zaman və məkan prinsipinə əməl edilmişdir. Problemlə bağlı istər ədəbi-bədii nümunələrin, istərsə də

---

[16] Axundov, A. Şeir sənəti və dil //–Bakı: -Yazıçı, -1980. – 159 s.

[17] Cabbarov, X. Sənətkar, söz, üslub //–Bakı: -Azərbaycan Dövlət Nəşriyyatı, – 1993. -199 s.

elmi-nəzəri materialların, eləcə də, konkret zaman daxilindəki araşdırmaların təhlili zamanı tarixilik və müasirlik prinsipi əsas götürülmüş, obyektiv dəyərləndirməyə üstünlük verilmiş və elmi obyektivliyin ortaya çıxmasına çalışılmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiyada yüz ilə yaxın bir dövrün poeziyası və bu problemlə bağlı araşdırmaları tədqiqata cəlb edilir. Bu dövrün sosialist və müstəqillikdən ibarət olduğunu və hər dövrün ədəbiyyata özünəməxsus baxış bucağını nəzərə almış olsaq, fərqli və bir-birinə zidd konsepsiyanın şahidi olarıq. Bunları nəzərə alaraq, dissertasiyada sərbəst şeir problemini ifadə edən aşağıdakı müddəalar müdafiəyə çıxarılır:

-Sərbəst şeirin dünya ədəbiyyatında yaranması və onun nəzəri məsələləri;

-Azərbaycan sərbəst şeirinin yaranması və ilkin inkişaf prosesi;

-Azərbaycan ədəbi tənqidinin sərbəst şeirə münasibəti və sərbəst şeir müzakirələri;

-Azərbaycan sərbəst şeirinin ilk nümunələri və formalaşma prosesi;

-Azərbaycan sərbəst şeirində N.Hikmət, M.Rəfili, S.Vurğun, M.Müşfiq faktoru;

-Azərbaycan sərbəst şeirinin mərhələ təsnifatı;

-Azərbaycan sərbəst şeirinin tənəzzül və inkişaf problemləri;

-Azərbaycan sərbəst şeirinin R.Rza;

-Azərbaycan sərbəst şeirində fərdi poetik üslubların formalaşması problemləri, Ə.Kərim üslubu;

-Müstəqillik ərəfəsi və dövrü sərbəst şeirin inkişaf problemləri;

-Sərbəst şeirdə assosiativlik, intellektuallıq, ritm, intonasiya, təzadlar problemi;

-Sərbəst şeirdə modernizm və postmodernizmin təzahürləri; və s.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işindəki yenilikləri aşağıdakı kimi ümumiləşdirmək olar:

-Tədqiqat işində sərbəst şeirin dünya ədəbiyyatında yaranması və ona münasibət araşdırılır və əsaslandırılır.

-Azərbaycan sərbəst şeirinin nə zaman ortaya çıxdığı, ilk olaraq hansı şeirlərin sərbəst şeir nümunəsi kimi yazıldığı üzə çıxarılır.

-Azərbaycan sərbəst şeirinin ilk olaraq futurizm adı ilə ortaya

çıxması göstərilir.

-İlk Azərbaycan sərbəst şeirçilərinin İsmayıl Hikmət və Əli Nazim olduğu nümunələrlə əsaslandırılır.

-Azərbaycan sərbəst şeirinin ilkin formalaşma prosesi, onun nümayəndələrinin yaradıcılığı təhlil edilir.

-Azərbaycan sərbəst şeirinin mərhələ və problem təsnifatı aparılır və ayrı-ayrı şairlərin yaradıcılığı buna görə təhlil edilir.

-Azərbaycan sərbəst şeirinin inkişafında xidmətləri olan ayrı-ayrı sərbəst şeirçilərin yaradıcılığına üstünlük verilir və onların sərbəst şeirin inkişafındakı xidmətləri göstərilir.

-Sərbəst şeir yaradıcılığının poetika problemləri (ritm, intonasiya, təkrar, paralelizm və s.) araşdırılır.

-Müstəqillik ərəfəsi və dövründə sərbəst şeir problemləri təhlil edilir.

-Sərbəst şeirdə modernizm və postmodernizmin təzahürləri təhlilə cəlb edilir.

-Sərbəst şeirlə bağlı dünya və Azərbaycan ədəbiyyatşünaslığının qənaətlərinə obyektiv müraciət edilir və bir çox həqiqətlərin üzə çıxarılmasında istinadlar edilir.

**İşin nəzəri və praktik əhəmiyyəti.** Tədqiqat işindən çağdaş Azərbaycan ədəbiyyatşünaslığının aktual problemlərinin həllində, Azərbaycan ədəbiyyatı və poeziya üzrə ali təhsil müəssisələrinin seminar və məşğələlərində, orta ümumtəhsil və ixtisas məktəblərində istifadə etmək olar. Tədqiqat işindən sərbəst şeirin tarixi, nəzəri məsələləri, inkişaf yolu və mərhələləri ilə bağlı aparılan araşdırmalarda, ədəbiyyat tarixi və poeziya tarixi haqqında kurs mühazirələrdə də istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Tədqiqat işinin mövzusu AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Şurası və Ədəbiyyatşünaslıq üzrə Problem Şura tərəfindən təsdiq olunaraq həmin İnstitutun XX əsr (sovet dövrü) Azərbaycan ədəbiyyatı şöbəsinin əsas elmi istiqamətlərinə uyğun olaraq yerinə yetirilmişdir. Mövzunun plan-prospekti XX əsr (sovet dövrü) Azərbaycan ədəbiyyatı şöbəsində müzakirə edilərək Tədqiqatın əsas elmi nəticələri iddiaçının ölkədə və xaricdə dərc etdirdiyi müxtəlif impakt faktorlu və skobs kimi nüfuzlu elmi nəşrlərdəki

məqalələrində, tezislərində, konfranslardakı məruzə və çıxışlarında öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu və işarə ilə ümumi həcmi.** Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən qoyulan tələblərə uyğun qaydada yazılmışdır. Dissertasiya giriş (19 059 şərti işarə), hər biri üç paraqraf olmaqla dörd fəsil (I fəsil (100 905 şərti işarı), II fəsil (90 228 şərti işarə), III fəsil (84 128 şərti işarə), IV fəsil (124 291 şərti işarə), nəticə (8 457 şərti işarə) və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın ümumi həcmi 450 842 şərti işarədir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığını şərtləndirən amillər əsaslandırılır, elmi yeniliyi müəyyənləşdirilir, praktiki və nəzəri əhəmiyyəti göstərilir, predmeti və obyekti, məqsəd və vəzifələri təyin edilir, problemin işlənmə səviyyəsi, metodoloji əsasları, tədqiqatın strukturu və aprobasiyası haqqında məlumat verilir.

Dissertasiyanın üç paraqrafdan ibarət I fəsli **"Sərbəst şeirin nəzəri problemləri və poetika məsələləri"** adlanır. **"Sərbəst şeirin yaranma tarixi, inkişaf yolu nəzəri kontekstdə"** adlı 1-ci paraqrafında sərbəst şeirin poetik forma kimi inkişaf yolu, tarixi və nəzəri problemləri araşdırılır. Qeyd olunur ki, sərbəst şeir poetik forması ilk dəfə XIX əsrin ikinci yarısında Fransada meydana çıxmışdır. Almaniyada İ.V.Gete, H.Heyne, İ.F.Gelderlen, ingilisdilli ədəbiyyatda V.Bleyk, U.Uitmen, Rusiyada A.P.Sumarokov və b. bu poetik formadan ilk dəfə istifadə etmişlər. XIX əsrdə bu poetik formadan geniş istifadə edilir; V.A.Jukovski, A.A.Delviq, F.N.Qlinka, M.Y.Lermontov, A.A.Fet və b. yaradıcılığında verlibr elementləri ya çoxluq təşkil edir, ya da ilk nümunələri yaranır. XIX əsrin 70-ci illərindən başlayaraq XX əsrin əvvəlləri də daxil olmaqla verlibr poetik hərəkatçıları çoxalır və böyüyür. A.Rembo, J.Laforq, A.de Reine, E.Verxarn, Q.Apolliner, P.Eluar, F.T.Marinetti,

T.S.Eliot, I.Bexer, P.Neruda, Nazim Hikmət və başqaları sərbəst şeirin dünyada tanınmış ən görkəmli nümayəndələri olmuşlar. Sərbəst şeir dilin lüğət tərkibinə öncə verlibr (vers libre-fransızca) adı ilə fransız yazıçısı Q.Kan tərəfindən 1884-cü ildə təqdim edilmişdir. Z.Əsgərli bu fikirdədir ki*: "İlk nümunələrini (sərbəst şeir nəzərdə tutulur-G.Ə.) XVIII əsrin ikinci yarısında V.Höte, H.Heyne (alman), U.Bleyk (ingilis) kimi şairlər yaratmış, XIX əsrin 70-ci illərindən geniş yayılmağa başlamışdır"*[18]. Ancaq nədənsə XVIII əsrdə yaranan sərbəst şeir nümunələrinə elmi ədəbiyyatlarda müraciət edilmir. XIX əsrin ikinci yarısından sərbəst şeirin yeni nümunələrinin yaranması ilə bağlı məlumatlar bütün mənbələr tərəfindən təsdiq edilir. Bu şeir formasından ilk dəfə 1872-ci ildə Rembo (1854-1891) "Hərəkət" və "Marina" adlı şeirlərində istifadə etmişdir. A.Rembonun "Aydınlanma" kitabında bu poetik formadan geniş istifadə edilmişdi. Uolt Uitmen (1819-1892) "Ot yarpaqları", Şarl Bodler (1821-1867) "Şər yarpaqları" kitablarında toplanan şeirlər məhz bu poetik forma ilə yazılmışdı. Rayner Mariya Rilke (1875-1926), Emil Verxarnın (1855-1916) yaradıcılığında da verlibr forması işlənilmişdir. Bu şeirlərdə ənənəvi şeir formasının tələblərinə ciddi əməl edilməmiş və yeni poetik formaya müraciət edilmişdi. Ancaq bu zaman bu şeir forması "verlibr" (fransızca-vers libre) adı ilə tanınmışdı. Verlibr adı XX əsrin əvvəllərində ingilis şairlərinin imajinizm adı ilə tanınan şairlərin yaradıcılığına da tətbiq edilmişdi. Verlibr adı ilə yaranan sərbəst şeir sonrakı dövrlərdə ayrı-ayrı xalqların poeziyasında müxtəlif şəkildə təzahür etmiş və adlandırılmışdır.

Sərbəst şeir xüsusilə, XX əsr ingilisdilli poeziyasında geniş yayılmışdır; bu poeziya vəzn-qafiyə sistemindən tamamilə azaddır. Bir çox poetik nümunələrdə isə poetik nitqin sillabizm (misrada bərabər sayda heca və vurğunun olması) tonizm, qafiyə ölçüsü, eləcə də nizami bəndlər gözlənilməmişdir. Ayrı-ayrı xalqların bədii düşüncəsində müxtəlif mərhələlərdən keçən sərbəst şeirin ümumi cəhətləri vardır. Estetik baxımdan şərti poeziya sünilik kateqoriyasının konkret bir ifadəsidir, sərbəst şeir isə bədii-estetik kateqoriya hesab olunur. Sərbəst şeir bütün komponentləri (üslubu,

---

[18] Əsgərli, Z. Poetika: izahlı sözlük //–Bakı: -Elm, -2014. –s.202-203.

poetik ifadə vasitəsi, təşbeh və s.) müasirdir. Bu forma ənənəvi, klassik versifikasiya qaydalarına tabe olmayan və hər biri keyfiyyətcə əvvəlkindən asılı olmayan sətirlərdən ibarət yeni bir poetik sistemdir. Sərbəst şeirdə fərqli sayda hecalar, fərqli müvəqqəti nizam, melodik (tonik), harmonik (tembrli) struktur vardır. Bu poetik formada özünəməxsus söz qrupları olur və fərqli sayda sətirlərin olması mümkündür. Yəni şeirin sətirlərinin əvvəldən axıra eyni ritm və intonasiya ilə getməsi məcburi deyil, hər bir fikirdən sonra onun ritm və intonasiyası da dəyişə bilər.

Rus sərbəst şeirinin görkəmli nümayəndələrindən biri Vladimir Buriç (1932-1994) "Rus ədəbi mətninin formal quruluşunun tipologiyası" kitabında aksent ritminin tipologiyasını müəyyənləşdirərkən insan dilinin müxtəlif sistemlərdən (fonetik tərkib, qramatik tərkib, leksik tərkib) ibarət olduğu və bu sistemlərin hər hansı bir vahidinin təkrarlanmasının özünəməxsus ritm yaratdığı qənaətinə gəlir. Onun fikrincə, dil ritminin bütün növlərini öyrənən elmə ritmologiya deyilir və o, ümumi ritmologiyanın bir hissəsi sayılır. Bu zaman rus dilinin özünəməxsus cəhətlərini də nəzərə almalı olur.[19] B.Tomaşevski isə sərbəst şeirin elmi təsnifatının olmamasından narazılığını bildirərək yazırdı: *"...Aydındır ki, konkret misranın ritmik əlamətləri minimuma deyil, maksimuma əsaslanmalıdır. Sərbəst şeirin təhlili ümumi düsturun tapılması yolu ilə deyil, xüsusi formaların tapılması yolu ilə aparılmalıdır".*[20]

Azərbaycan nəzəri ədəbiyyatşünaslığında sərbəst şeir iki ad ilə təsbit olunmuşdur; futurizm və sərbəst şeir. Son vaxtlar isə bəzən azad şeir ifadəsi də işlənir ki, bu ifadə hələ tam olaraq termin kimi oturuşmamışdır. Sərbəst şeir dünya ədəbiyyatında olduğu kimi, Azərbaycan ədəbiyyatında verlibr adı ilə ortaya çıxmamışdır. Mətbuatda bu ad ədəbi tənqid tərəfindən bir müddət futurizm kimi tanınmış və qiymətləndirilmişdir. Belə ki, ilk sərbəst şeirçilərdən biri Əli Nazimin 1926-cı ildə "Dan ulduzu" jurnalında şeirləri çap edilərkən *futurist şeir adı altında dərc edilmişdir*[21]. Bu cür yanaşma

---

[19] Бурич, В. Типология формальных структур русского литературного текста (Проза. Удетероны. Стихи) // – Москва: -Советский писатель, – 1989. – s. 128.

[20] Томашевский, В. Стих и язык -М.-Л., //– Гослитиздат, -1959, -с. 79.

[21] Nazim, Ə. İnqilab // – Dan ulduzu, – 1926, №6. -s. 15.

hələ sərbəst şeirin ədəbi prosesə tanış olmamasından da irəli gələ bilərdi. İkinci bir tərəfdən, ən çox futuristlər bu formadan özlərinin poetik fikirlərini ifadə etmək üçün geniş istifadə edirdilər.

20-ci illərdən Azərbaycan poeziyasına "ayaq basan" sərbəst şeir elə həmin vaxtdan da nəzəri mübahisə mövzusuna çevrilmiş, onun ətrafında çoxlu nəzəri mübahisə və müzakirələr getmişdir. Bu mübahisə və müzakirələri bir neçə yerə ayırmaq olar:

a) sərbəst şeirin özü, mahiyyəti və xarakteri haqqında;
b) sərbəst şeirin strukturu haqqında;
c) sərbəst şeirin mündəricəsi haqqında;
d) sərbəst şeirin inkişaf yolları haqqında.

Bütün hallarda görünən odur ki, sərbəst şeir öz gəlişi ilə ədəbi mühitdə və nəzəri fikirdə yeni müzakirə meydanı açmış, ədəbi prosesi canlandırmışdır.

I fəslin **"Azərbaycan sərbəst şeir poetikasının problemləri"** adlı 2-ci paraqrafda sərbəst şeirin poetika məsələləri tədqiq edilir. Bu formanın milli poetik məkana gəldiyi 20-ci illərdə əgər onun yaxşı forma olub-olmaması məsələsi müzakirə olunurdusa, bu gün belə bir müzakirədən söhbət getmir. İlk dəfə özü də sərbəst şeir yazan M.Rəfili Moskvadan yazdığı "Sərbəst şeir" haqqında ilk söz" məqaləsində bu poetik formanı "azəri proletar ədəbiyyatının inkişaf yolundakı ən maraqlı hadisələrdən biri" olaraq qiymətləndirirdi. M.Rəfili sərbəst şeiri yeni cərəyan və şəkil (forma) olaraq qəbul edir və onun milli poeziyada "vətəndaşlıq hüququnu qazanmaq yolunda" irəlilədiyini görürdü[22].

20-ci illərdə sərbəst şeirin ilk nümunələri yaranarkən milli poeziyada ciddi keyfiyyət dəyişikliyi baş verirdi. Lakin bu dəyişiklik əski formaların inkarı hesabına olmamalı idi, əksinə yeni ədəbiyyat yaratmaqda əski ədəbiyyatın təcrübəsindən istifadə etmək olardı. Əslində sərbəst şeirin ik nümunələrini yaradan və bu ilk onillikdə dörd şeirlər kitabını dərc etdirən M.Rəfilinin yeni forma ilə bağlı fikirlərinin mayasında yenilkçilik dururdu. Lakin proletar ədəbiyyatı ilə bağlı mövcud fikirlər və nəzəriyyələr onun fikirlərini qarışdırır,

---

[22] Rəfili. Mədəni ədəbiyyat yolunda. Rəfili M. Pəncərə // — Bakı: — Azərnəşr, — 1929. — s. 73.

nəticədə ziddiyyyətli qənaətlər yaranırdı. M.Rəfilinin məqaləsinə cavab olaraq M.Rzaquluzadənin "Sərbəst şeir haqqında ikinci söz" adlı məqaləsi ədəbi tənqidin bu məsələyə diqqət ayırmasının nəticəsi idi[23].

Tənqidçi Əli Nazim "Yeni vəzifələr ətrafında" (proletar ədəbiyyatında mündəricə və şəkil məsələlərinə dair) məqaləsində ümumən sərbəst şeirə müraciəti inkişaf hesab edirdi. Onun fikrincə, əruz "ölü vəzndir", "dəyişmir", ona görə də onun içində hər hansı bir yenilik etmək çətindir. Buna görə də bu vəznlə yazılan proletar şeirlərinin bizə Füzuli və Hamidlər dövrünü xatırlatdığını bildirirdi. Heca vəzni haqqında da gənc tənqidçi o qədər də müsbət fikir söyləmirdi və onun lazımı qədər geniş olmadığını iddia edirdi. Burada tənqidçi gənclərin qarşısında duran iki yolu belə müəyyənləşdirirdi; ya geriyə-əruza qayıtmaq, ya da sərbəst şeir yolunu tutmaq[24]. M.Rəfili kimi, Ə.Nazimi də daha çox proletar ədəbiyyatı düşündürürdü və fikirlərində proletar düşüncəsi sıx-sıx yer alırdı. Hecaya münasibətdə isə tənqidçinin fikirlərində qeyri-obyektivliyini, hecanın gələcəyi ilə bağlı yanlış düşündüyünü bu formanın sonrakı inkişaf yolu bir daha təsdiq etmiş olur. Bütün bunlar sərbəst şeirin zənginləşməsini şərtləndirmişdir. Bu zənginləşmə bir neçə istiqamətdə getmişdir:

1. Şeirdə bədii təhkiyə texnikası dəyişmiş, memarlıq (bədii təsvir və ifadə vasitələri, ritm və intonasiya və s.) elementləri yenilənmişdir.

2. Şeirdə obrazlılıq və predmetlilik artmış, onun strukturuna əyanilik daxil olmuşdur.

3. Şeirin semantik məzmununa yeni çalarlar əlavə olunmuş, şeirin yeni milli poetik sistemi formalaşmışdır.

4. Şeirin ifadə imkanları, daxili musiqililik və ritmik melodiyası yenilənmişdir.

5. Şeirdə poetik detallaşdırma və əyanilik daha da görümlü olmuş, üslubi elementləri artmışdır.

6. Söz və səs təkrarları vasitəsilə şeirin vahid ritmik-melodik

---

[23] Mim, Re. Sərbəst şeir haqqında ikinci söz // – İnqilab və mədəniyyət, – 1929, №3-4. –s. 55.

[24] Nazim, Ə. Yeni vəzifələr ətrafında // – İnqilab və mədəniyyət, – 1928, №8. – s. 31.

kontekst daxilində variasiyaları yeni məzmun qazanmışdır.

Sərbəst şeirin poetikasını zənginləşdirən amillərdən biri də onun semantik məzmununa yeni çalarların əlavə olunmasıdır. Bu cəhətdən Azərbaycan sərbəst şeiri yeni bir inkişaf yolu keçmişdir. Belə ki, 60-cı illər sərbəst şeirində hadisə və predmetlərin poetik təsvirində təzadlılıq və fəlsəfi çalarlar şeirin məzmununu zənginləşdirmişdir. Şeirdəki dünyagörüş, dünyaduyumu yeni keyfiyyət qazanır. B.Vahabzadə, V.Səmədoğlu, R.Rövşən, F.Qoca, N.Həzənzadə şeirlərində təzadlı düşüncələrin təsvirinə tez-tez rast gəlmək olur.

Sərbəst şeirin poetikasında ritm və melodiya da ona yeni üslubi keyfiyyətlər qazandırır. Belə ki, sərbəst şeirdə forma ilə məzmunun vəhdətini təmin edən faktorlardan biri ritm və intonasiyadır. Sərbəst formada yazıb yaradan şairlər zaman-zaman ritmə, melodiyaya diqqət yetirmişlər. Görkəmli rus poetika nəzəriyyəçilərindən biri B.Tomaşevski ritmə mühüm əhəmiyyət verərək yazır: *"Biz ritm deyərkən nitqin müəyyən səs təşkilini nəzərdə tutacağıq. Biz nitq, ritmi haqqında danışarkən, heç bir başqa münasibəti deyil, səs sistemini, səs ardıcıllığını nəzərdə tuturuq. Lakin öz-özlüyündə "ritm" sözü az şey deyir, çünki müəyyən qanunauyğunluq, müəyyən səs mütəşəkkilliyi nəsrdə də mövcuddur"*[25].

Azərbaycan sərbəst şeirinin 60-cı illər mərhələsində səs və söz təkrarları şeirin poetik yükünün məzmun qazanmasında başlıca vasitələrdən biri olur. Bəzən buraya qoşa sözlər və tire işarəsi də əlavə edilir. Bütün bunlar poetik mətndə təsvir obyektini müxtəlif bucaqlardan görməyə imkan verir. Bəzən hər hansı səslərin və sözlərin təkrarı sadəcə assosiativlik yaratmaq üçün lazım olmur, həm də fikrin məna yükünü artırır.

Bu fəslin **"Azərbaycan sərbəst şeirinin mərhələ təsnifatı"** adlı 3-cü paraqrafı sərbəst şeirin mərhələ probleminə həsr olunub. Sərbəst şeirin Azərbaycan poeziyasına gəlişindən keçən zaman çərçivəsində onun inkişaf yolu, keçdiyi mərhələlər və poeziya məkanında tutduğu yer, mövqe haqqında müəyyən qənaətlərə gəlmək mümkündür. Eyni zamanda, sərbəst şeirin forma, məzmun, bədii

---

[25] Томашевский, В. Стих и язык -М.-Л., // – Гослитиздат, – 1959, – с. 67.

ifadə vasitələri cəhətdən inkişaf xüsusiyyətləri də bu mərhələlərə görə dəyişmiş və yenilənmişdir. 20-ci illərdə gənclərin təşkil etdiyi futurizm yaradıcılığı gecəsi zamanında müəyyən etirazla qarşılanmışdı. Bu etirazı nəzərdə tutan gənc tənqidçi M.Hüseyn yazırdı: *"Burada (futurizm gecəsi nəzərdə tutulur-G.Ə.) öz əsərlərini oxuyan gənc qələmlər üzərinə müqtədir müəllimlər və ədəbiyyat ixtisasına malik olanlar tərəfindən bir çox hücumlar olundu. Ən əvvəl onu etiraf edəlim ki, yeni cərəyana göz yummaq və onu az zamanda aradan yox etməyə çalışmaq doğru deyildir"*[26]. Futuristçilərin yazdığı əsərlər içərisində nəzmsiz, şəkilsiz bir şeirdən daha çox nəsrə oxşayan bədii nümunələr də olurdu ki, bu da səslə oxunmasa heç nə başa düşülmür, heç bir qiymətə malik olmurdu. Buna baxmayaraq, sərbəst şeir getdikcə özünə yol tapmağa çalışır, proletar ədəbiyyatına bürünərək əruz və heca vəznli Azərbaycan poeziyasında getdikcə özünə yer edirdi. Bu dövrdə sərbəst şeir yazanların sayı artmağa başlayır; İ.Hikmət, Ə.Nazimdən sonra N.Hikmət və M.Rəfilinin şeirləri sərbəst formanın ilk nümunələri kimi ədəbi prosesə daxil oldu. Onların ardınca S.Vurğun, R.Rza, M.Müşfiq, O.Sarıvəlli, N.Rəfibəyli kimi şairlər sərbəst formada ilk nümunələr yaratmışdır. Lakin ilk sərbəst şeirlə indiki, ilk sərbəst şeirçilərlə çağdaş şeirçilərin dünyagörüşü arasında böyük fərqlər vardır. Əgər ilk sərbəst şeirçilər əruz və hecaya qarşı bir cəbhə açmışdılarsa, sonralar bu iki forma və onun tərəfdarları arasında bir "uzlaşma" meydana gəlmişdir.

Akademik Ağamusa Axundov sərbəst şeirin sovet ədəbiyyatındakı inkişafını iki mərhələyə bölür. Bu mərhələlərdən biri 1920-30-cu illər, ikinci mərhələ isə 1950-ci illərin əvvəllərindən başlayır[27]. Əlbəttə, bu araşdırma 70-ci illərin sonlarında aparılmışdır və müəllifin məqsədi heç də sərbəst şeirin mərhələlərini araşdırmaqdan ibarət olmamışdır. Buna görə də sərbəst şeirin inkişaf mərhələlərinə yenidən baxmaq lazım gəlir. Azərbaycan sərbəst şeirinin poetik inkişaf baxımından keçdiyi yolu mərhələ kontekstində təxmini şəkildə aşağıdakı kimi müəyyənləşdirmək olar:

1. Azərbaycan sərbəst şeirinin yaranması və formalaşması

---

[26] Mehdi, H. Əsərləri. 10 cilddə -9 c., //– Bakı, – Yazıçı, – 1979, – s. 5.

[27] Axundov, A. Şeir sənəti və dil //– Bakı: – Yazıçı, -1980. – s.40-41.

mərhələsi. Bu dövr 1920-ci illərin əvvəllərindən (yəni ilk poetik nümunələrin çap olduğu dövrdən) başlayır 30-cu illər repressiyasına qədər davam edir.

2. Azərbaycan sərbəst şeirinin tənəzzül mərhələsi. Bu dövr 30-cu illərin ortalarından başlayıb 50-ci illərin ortalarına qədər davam edir. Bu mərhələdə barmaqla sayılacaq qədər sərbəst şeir nümunələri yaranır.

3. Azərbaycan sərbəst şeirinin yenidən dirçəlişi. Bu mərhələ 50-ci illərin ortalarından başlayaraq 60-cı illərin əvvəllərinə qədər davam edir.

4. Azərbaycan sərbəst şeirinin üslub, forma və məzmun baxımından dəyişməsi. Bu mərhələ 60-80-ci illəri əhatə edir və sərbəst şeir özünün yeni çiçəklənmə dövrünü yaşayır.

5. Çağdaş Azərbaycan sərbəst şeirinin müstəqillik dövrü. Bu dövr 90-cı illərin ortalarından başlayaraq bugünümüzə qədər davam edir. Lakin bu dövrün özündə də sərbəst şeirin müxtəlif yollardan "izm"lərdən keçdiyini görürük.

Azərbaycan sərbəst şeirinin birinci mərhələsinin formalaşmasında çox az sayda şairlər iştirak edir. Bu şairlər əsasən yaradıcılığa yeni başlayanlardan ibarət idi. İ.Hikməti çıxmaq şərtilə (onun da cəmi iki-üç şeiri vardır) bu dövrdə yazıb yaradan Ə.Nazim, N.Hikmət, M.Rəfili, S.Vurğun, R.Rza, M.Müşfiq, O.Sarıvəlli yaradıcılığa yeni başlamışdılar. Onlar yaradıcılıqlarının ilk dövrlərində sərbəst şeiri tamamilə mənimsəməmiş, yalnız şəkil, yəni forma cəhətlərinə fikir verirdilər. M.Rəfili üzünü "Verxarnın inqilabçı, mücadiləçi ruhlu şeirinə, Uolt Uitmenin bəşər cəmiyyətinin gələcək səadətinə inanan "optimist və nəşəli nəzminə", "Mayakovskinin ictimailiyinə" tutur, milli olanı isə müəyyən etirazlarla qarşılayırdı. Bu dövrün sərbəst şeirində proletarlaşma məzmunda aparıcı xətti təşkil edirdi. Bu mərhələnin əsas xüsusiyyətlərindən biri sərbəst şeirdə yazılan bütün nümunələrin bədii cəhətdən yüksək olmaması, formanın tələblərinə əməl edilməməsi və proletar təfəkkürünün əsas yer tutması idi.

40-cı illərdə sərbəst formanın elə bir dəyərli nümunələri yaranmadığı üçün onun ədəbi prosesdəki yerini də müəyyənləşdirmək çətindir. Daha doğrusu, sərbəst şeir 40-cı illər poeziyasında

əhəmiyyətli yer tutmur. 50-cı illərin ortalarından sərbəst şeir R.Rza yaradıcılığı ilə özünün yeni mərhələsinə daxil olur. Bu mərhələni həm R.Rza, həm də ümumiyyətlə Azərbaycan sərbəst şeirində poetik təfəkkürün yeni formalarla, bədii təsvir və ifadə vasitələri ilə zənginləşdiyi dövr kimi səciyyələndirmək olar.

Sərbəst şeirin üçüncü mərhələsinin başlanğıcında tək olan R.Rzaya getdikcə yeni sərbəst şeirçilər qoşulur. Ə.Kərim, Ə.Kürçaylı, Ə.Salahzadə, N.Həsənzadə, A.Abdulla, T.Abdin, F.Qoca, A.Abdullazadə, F.Sadıq, R.Rövşən və b. şairlərin yaradıcılığında sərbəst forma aparıcı olur. Bu dövrdə sərbəst şeir yalnız kəmiyyət baxımından inkişaf etmir, həm də keyfiyyətcə, məzmun və mahiyyət etibarilə dəyişərək poeziya məkanında mühüm yer tutur. Üçüncü mərhələdə sərbəst şeir bir hərəkata dönüşür, özünün ən mütəhərrik və hərəkətli dövrünü yaşayır R.Rza yaradıcılığının bu dövrünün sərbəst şeirlərində bunu aydın görmək olur. Onun "Rənglər" və Mirzə Cəlilə həsr etdiyi silsilə şeirləri semantika baxımından əvvəlki yaradıcılığından fərqlənir ki, bu da sərbəst şeirin özünün yeni mərhələyə daxil olması ilə bağlı idi. Eyni proses Ə.Kərim sərbəst şeirləri üçün də xarakterikdir. Onun bədii mətnlərində obrazlılıqla yanaşı, düzümü və sistem şeirin arxitektonikasını baxımlı, yaddaqalan edir.

60-cı illərin əvvəllərindən başlayan sərbəst şeirin arxitektonik, struktur dəyişmələri 80-ci illərin ortalarında başa çatır. Assosiativ poeziya ilə sərbəst şeirin poetexnik imkanları daha da genişlənir və zənginləşir. Ritm, intonasiya, ahəng baxımından da sərbəst şeir özünün yeni mərhələsinə qədəm qoyur. Bu mərhələdə həm 60-cılar, həm 70-cilər poetik yaradıcılıqlarında sərbəst imkanlarını daha da genişləndirirlər. İ.İsmayılzadə, Ə.Salahzadə, R.Rövşən, V.Səmədoğlunun poetik nəfəslərindəki yeniliklər ümumən sərbəst şeirin mövzu və problematika mənzərəsini də dəyişir. Məhz onların yaradıcılığı ilə sərbəst şeirdə assosiativ düşüncə tərzi artır, bədii təhkiyə texnikası poetik quruculuqda əsas rola malik olur. 80-ci illər sərbəst şeirinin morfoloji əlamətlərindən biri poetik dərketmədə detallaşma, isimləşmənin özünü göstərməsidir.

Sərbəst şeir 90-cı illərin ortalarından başlayaraq modernizm və postmodernizm elementlərilə yenidən səhnəyə çıxır. Adil Mirseyid,

Kamal Abdulla, Rüstəm Behrudi, Çingiz Əlioğlu, Rasim Qaraca, Murad Köhnəqala, Etimad Başkeçid və b. şairlərin sərbəst şeirlərində modernizm və postmodernizm elementləri aydın görünür.

Birinci fəsildə əldə edilən müddəalar müəllifin elmi jurnallarda dərc edilmiş məqalələrində öz əksini tapmışdır.[28]

Dissertasiyanın II fəsli **"Azərbaycan sərbəst şeirinin təşəkkül problemləri"** adlanır. Bu fəslin "Azərbaycan sərbəst şeirinin ilkin axtarış mərhələsi" adlı I paraqrafı milli sərbəst şeirin formalaşma problemləri araşdırılır. Məlumdur ki, sərbəst şeir milli poetik düşüncəyə kənardan gəlirdi. Çox az bir vaxtda N.Hikmətin şeirləri Moskvadan Bakıya "ayaq" açır və 20-ci illər ədəbi prosesini yönləndirən bir faktora çevrilir və tezliklə sərbəst şeir N.Hikmətin təsirilə M.Rəfili yaradıcılığının da aparıcı qoluna çevrilir.

N.Hikmətin poetik təfəkkürünün milli poetik təfəkkürə yaxın olması, onun funksionallığını daha da artırmış olurdu. Onun şeirlərində poeziyanı mövzu və problematika, üslub, ritm baxımından dəyişəcək bir güc və qüvvət var idi. Siyasi proseslərin təsiri altında dəyişən cəmiyyətin mübarizə əzmini göstərmək üçün şair yeni bir ritm və ahəng yaratmağa nail olmuş, poetik təfəkkürə siyasi mübarizə elementləri gətirmişdir:

*Axın var,*
*günəşə axın!*
*Günəşi zəbt edəcəyik,*
*Günəşin zəbti yaxın!*
*Biz torpaqdan, oddan, sudan, dəmirdən doğulduq,*

[28] Azərbaycan sərbəst şeiri ətrafında mübahisələr. Humanitar elmlərin öyrənilməsinin aktual problemləri.Bakı Slavyan Universiteti. //– Bakı, 2016, s. 137-143; Sərbəst şeirin Mikayıl Rəfili mərhələsi. Filologiya məsələləri. AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutu. Bakı, 2016, s.296-301; Azərbaycan sərbəst şeirinin formalaşmasında Nazim Hikmət faktoru. //– Sivilizasiya. Bakı Avrasiya Universiteti. Bakı, 2018, cild 7 say 4 (40), s.128-135; Sərbəst şeirin yaranması və formalaşması məsələləri. "Filoloji Elmlər İnnovativ Tədqiqatlar Kontekstində" adlı Beynəlxalq elmi-praktik onlayn konfrans. Bakı Slavyan Universiteti. // – Bakı,24 dekabr, 2020, s. 170-173; Sərbəst şeirin nəzəri inkişaf problemlərinə dair. Azərbaycan Elm Mərkəzi, Respublika Elmi Konfransı. // – Bakı, 2021, s. 17-19.

*Günəş əmizdirir körpələrimizə arvadlarımız.*
*Torpaq qoxur mis saqqallarımız!*
*Nəşəmiz isti,*
*igidlərin yuxularında yanan*
*o "an"*
*qədər isti!...*[29]

20-ci illər Azərbaycan poeziyasında sərbəst şeirin formalaşmasına N.Hikmətin rolu yalnız onun bu ədəbi prosesdə çap olunması ilə məhdudlaşmır, həm də şeirlərinin təsirilə yeni yaranan sərbəst şeirçilər nəslinin yetişməsi olur. Həm Ə.Nazim, həm M.Rəfilinin şeirlərindən və məqalələrindən aydın olur ki, bugünün şeirlərinin, yeni sənət anlayışının formalaşmasında N.Hikmət faktoru əsasdır. Hətta M.Rəfili özü sərbəst şeirin ilk yaradıcılarından biri olmasına rəğmən, onu tamamilə N.Hikmətlə Azərbaycan ədəbiyyatına daxil olmasının tərəfdarı kimi çıxış edərək yazırdı: *"Sərbəst şeir cərəyanı tarixi, məfkurəvi və bədii təşkilatlanma və bir cərəyan olmaq etibarilə iştə bu momentdən (1927-ci ildən sonra) başlanmışdır"*[30].

Sərbəst şeirin ilkin axtarış mərhələsində İ.Hikmət, Ə.Nazim, N.Hikmət və M.Rəfli dördlüyü mühüm yer tutur. Bunlardan sərbəst şeir qatarına ən gec qoşulan M.Rəfili olmuşdur. Belə ki, İ.Hikmət və Ə.Nazim sərbəst şeir cəbhəsini tərk edərkən bu sıraya M.Rəfili qoşulur və 30-cu illərin əvvəllərinə qədər onun ağırlığını N.Hikmətlə birgə çəkir. Lakin elmi ədəbiyyatşünaslıqda çox zaman M.Rəfilinin sərbəst şeirdəki xidmətləri nəinki unudulur, hətta onun bu sahədəki yaradıcılığı özünün elmi qiymətini almır. Təkcə bunu demək lazımdır ki, 1935-ci ilə qədər M.Rəfilinin 4 şeirlər kitabı dərc olunmuşdur ki, buradakı şeirlərin hamısı sərbəst vəzndə yazılmışdır.

20-ci illərin sonu, 30-cu illərin əvvəllərində Azərbaycan sərbəst şeiri özünün formalaşma dövrünü yaşayır. Bu dövrdə Ə.Nazim, İ.Hikmət, N.Hikmət, M.Rəfili yaradıcılığı ilə yanaşı, sonralar Azərbaycan sovet poeziyasının klassiklərinə çevrilən S.Vurğun,

---

[29] Nazim, H. Günəşi içənlərin türküsü //– Bakı: – Azərnəşr, – 1927. – s.43.

[30] Gülən adam. Sərbəst şeir haqqında ilk söz //– Maarif işçisi, –1929, №1. – s. 71.

M.Müşfiq, R.Rza yaradıcılığı da bu dövrün poeziyasının yolunu müəyyənləşdirən amillərdən olur.

II fəslin **“Azərbaycan sərbəst şeirinin formalaşma problemləri”** paraqrafında Azərbaycan sərbəst şeirinin formalaşma dövrü tədqiq edilir. Bu zaman yeni dövrün şeirindən məzmunda inqilabilik, əsrin inkişafını tərənnüm, ideologiyada materialist və dialektik həyatı təsvir etmək kimi tələblər də qoyulurdu. Bu mənada sərbəst şeirdə proletar düşüncəsini daha yaxşı ifadə etmək olurdu. Ən azından dövrün ədəbi tənqidi sərbəst şeirə məhz bu mövqedən yanaşır, köhnə vəzn və ifadə vasitələri ilə yeni proletar düşüncəsinin təsvirini mümkünsüz hesab edirdi. Bu dövrdə ədəbiyyata gələn S.Vurğun, R.Rza, O.Sarıvəlli, M.Dilbazi, N.Rəfibəyli kimi şairlər də bu formada yazıb yaradırdılar. S.Vurğunun yaradıcılığında ənənəvi poeziya ilə yanaşı, yeni yaranan sərbəst şeirin izlərini də aydın görmək olur. Hətta belə demək mümkünsə, sərbəstdə yazdığı şeirlər onun yaradıcılığında mühüm yerlərdən birini tutur. Çox qısa bir zamanda şair “Şairin andı”, “Fanar”, “Raport”, “Rot Front” və s. şeirlərini sərbəstdə yazaraq özünün yeni poetik manifestini elan edir. 1929-cu ildə yazdığı “Şairin andı” şeirində onun keçmişindən ayrılmasının ilk anonsunu sərbəst formada verir:

*Bilənlər bilir,*
*On beş il əzəl,*
*Bu gün tirək-titrək*
*Şeir yazan bu əl,*
*At tumarladı, yer qazdı.*
*Güllü bir yazdı:*
*Anamın gözlərində dalğalanan,*
*Alışıb yanan*
*Bir bahar buludu vardı.*
*O gözlər,*
*ağlar, ağlardı*[31].

30-cu illərin əvvəllərində S.Vurğun sərbəst şeirlərinin sayı

---

[31] Vurğun, S. Əsərləri (yeddi cilddə) -I cild, //– Bakı: – Elm, – 1985. –s.208.

artmış, onu forma və məzmun cəhətdən zənginləşdirmişdir. Digər sərbəst şeirçilər kimi, o da bu formada özünün proletar düşüncəsini ifadə etmiş, yeni inkişafı tərənnüm etmiş, mövcud hərəkətin dinamikasını verməyə çalışmışdır. "Qızıl Şərq" şeirində isə N.Hikmət sərbəst şeirinin təsiri aydın görünür. Bu şeirində şair N.Hikmət sərbəst şeirində olduğu kimi, səslərin assosiasiyasına çox fikir verir və yeni bir ritm yaratmağa çalışır:

*Trak...*
*Trak...*
*Tra..., raq...*
*Divarları yırtaraq...*[32].

M.Müşfiqin poetik üslubu heç bir forma və məzmun çərçivəsinə sığmayıb yeni bir yol müəyyən edirdi. M.Müşfiqin ilk şeirlərini yazdığı vaxtlarda Azərbaycan poeziyasında bu iki xətt davam edirdi. İkinci xətt zəif olsa da, əsasən, onu gənclik təmsil edirdi. Doğrudur, M.Müşfiqin yaradıcılığında klassik üslub başlıca rol oynayır, ancaq araşdırdıqda görmək çətin deyil ki, o da T.Fikrət kimi mövcud vəzn sistemini dağıtmış, yeni bədii təsvir və ifadə vasitələri və özünün yeni, orijinal qafiyə sistemini yarada bilmişdir. Onun poeziyasında mövzu və problematika yeni olduğu kimi, forma və şəkil, obrazlar da yenilikçiliyi təmsil edirdi. Hətta bu proses o şəkildə davam edirdi ki, ortaya tamamilə yeni bir poetik forma çıxırdı. Təkcə "Tar" deyil, şairin bu dövrdə yazdığı bir çox şeirlər Azərbaycan poeziyasının sərbəst formasını bir qədər də inkişaf etdirmişdir. "Tar" (1929-1933), "Küləklər" (1929), "Gözlərimiz" (1929), "Bayram axşamı" (1930), "Buludla" (1930), "Şeirim" 1936), "Könlümün dedikləri" (1936), "Yenə o bağ olaydı" (1936) və s. şeirləri ya sərbəstdə yazılmış, ya da sərbəstlə hecanın ortasında yeni bir intonasiya ilə çağdaş Azərbaycan şeirini forma və məzmun cəhətdən zənginləşdirmişdir. "Tar"da proletariatın xalqın milli, mənəvi sərvətlərindən olan tara münasibətini bütün reallığı ilə açıb göstərə bilmişdir. Şeir birbaşa xalqın milli musiqi aləti tara müraciətlə başlayır və şair heç bir tərəddüd keçirmədən onun oxumasını istəyir:

---

[32] Vurğun, S. Əsərləri (yeddi cilddə) -I cild, // – Bakı: – Elm, –1985. –s. 154.

*Oxu, tar, oxu, tar!..*
*Səsindən ən lətif şeirlər dinləyim.*
*Oxu, tar, bir kadar!..*
*Nəğməni su kimi alışan ruhuma çiləyim.*
*Oxu, tar!*
*Səni kim unudar?*
*Ey geniş kütləmin acısı, şərbəti-*
*Alovlu sənəti!*[33]

M.Müşfiq yaradıcılığında bu proses ayrı-ayrı şeirlərində boy göstərir, lakin bir şeirdə üç iki vəznin, bir formanın qarışıq əlamətlərini axtarmaq bir qədər çətinləşir. Buradan belə nəticə çıxır ki, "Tar" şeirində iki vəzn (əruz, heca), bir forma (sərbəst) özünü göstərmişdir ki, bu da o qədər də elmi səslənmir. Çünki sərbəst şeirin özünəməxsus bölgüləri vardır. Bunlar eyni bölgülü, qafiyəli, fərqli bölgülü, qafiyəli, qismən bölgülü, qafiyəli və ya qafiyəsiz sərbəst şeir də ola bilir. Aydın məsələdir ki, M.Müşfiqin "Tar"ı yazıldığı zaman sərbəst şeirin bütün bölgüləri hələ istifadə olunmamışdı.

II fəslin **"Azərbaycan sərbəst şeirinin Rəsul Rza mərhələsi"** paraqrafı sərbəst şeirin görkəmli nümayəndəsi R.Rzanın sərbəst şeir yaradıcılığını ehtiva edir. Rəsul Rza çox doğru olaraq, Azərbaycan sərbəst şeirinin ən görkəmli nümayəndəsi hesab olunur. R.Rza sərbəst şeirçilər sırasına məhz 30-cu illərin əvvəllərindən qoşulmuşdur. Belə ki, gənc şairin 1932-ci ildə çıxan "Çapey" kitabında sərbəst şeirin ilk nümunələri yaradılmış və bundan sonra davamlı olaraq şeirlər kitabı dərc edilmişdir. Bu şeirlərdən bir çoxu sərbəst şeirin formalaşması prosesində müəyyən rol oynamışdır. "Bolşevik yazı", "Mayakovski", "Bu gün", "Cəlladları durdur", "Adsız şeir", "Buludlar", "Madrid" və s. şeirlərində dövrün ideoloji meyilləri ilə yanaşı, yeni poetik yanaşma da özünün göstərirdi. "Bolşevik yazı" şeiri dərhal ədəbi mühitdə müəllifini tanıtmış və gənclərin yaradıcılıq manifestinə çevrilmişdir. Şeirdə siyasi ab-hava ilə birlikdə yeni yaradıcılıq yolları da müəyyənləşdirilirdi:

---

[33] Müşfiq, M. Seçilmiş əsərləri //– Bakı: –Xalq Bank, -2013. –s. 70.

*Mübarizə bu gün də var,*
*yarın da*
*Mən də onun ən ön sıralarında*[34].

50-ci illərin sonlarından başlayaraq, həm R.Rza yaradıcılığında, həm də sərbəst şərbəst şeir həyatında yeni mərhələ yaşanılır. Bu mərhələni sərbəst şeirin Rəsul Rza mərhələsi də adlandırmaq olar. Bu zaman şair həm də yaradıcılığının ən kamil mərhələsini yaşamış, sərbəst şeirin sonrakı inkişafı üçün ən yaxşı nümunələr yaratmışdır. Bu zaman onun üslubu formalaşdığı kimi, mövzu və problematikasında da koordinal dəyişikliklər baş vermişdir. Bu dövr R.Rza yaradıcılığında sərbəst şeir forma və məzmun cəhətdən zənginləşmiş, bədii təsvir və ifadə vasitələri baxımından çoxsəslilik qazanmışdır. Şairin yaradıcılığının bu mərhələsini Nazim Hikmət "İkinci nəfəs" adlandırmış və hətta bu adda məqalə də yazmışdır[35]. Bu mərhələ "Qızılgül olmayaydı" poeması ilə daha da möhkəmlənir. Çünki bu poema "Lenin"dən fərqli olaraq mövzu və problematika cəhətdən də yeni idi. Həm də repressiya olunmuş şairin obrazını, yaxud həmin dövrün obrazını yaradırdı. Fikrimizcə, R.Rza "Qızılgül olmayaydı" poeması ilə bütünlüklə yeni mərhələyə daxil olur. Əgər əvvəlki mərhələdə R.Rza sərbəst şeiri ümumi sərbəst şeirçilərdən çox az fərqlənirdisə, 50-60-cı illərdə bu fərq bir qədər də böyüməyə başlayır və yeni bir mərhələ təşkil edir.

R.Rzanın 60-70-ci illər yaradıcılığının sərbəst şeirdə bir mərhələ təşkil etməsinin müəyyən səbəbləri vardı. Hər şeydən əvvəl, şairin yaradıcılığı özünün ən kamil mərhələsinə çatmışdır. İkincisi, sərbəst şeir təkcə Azərbayanda deyil, dünya, eləcə də Sovetlərə daxil olan xalqların poeziyasında özünü təsdiq etmişdir. Üçüncüsü, R.Rza ən çətin anlarda belə sərbəst şeir cərəyanını başsız buraxmamışdır. Dördüncüsü, şairin poeziyası forma, struktur, bədii təsvir və ifadə vasitələri baxımından zəngin bir yol keçmişdir. Beşincisi, şairin poetik yaradıcılığı böyük bir təkamül yolu keçmiş, dərin fəlsəfi

---

[34] Rəsul, R. Çapey. //– Bakı: -Azərnəşr, -1932, -s. 26.
[35] Rəsul Rza xatirələr işığında (məqalələr, xatirələr, çıxışlar) //–Bakı: -Azərbaycan Milli Ensiklopediyası, – 2001. –s.12.

mahiyyət qazanmışdır. Bütün bunlar şairin yaradıcılığını yeni mərhələ kimi şərtləndirən amillərdən olmuş, onu poeziyanın zirvəsinə yüksəltmişdir. Bu illərdə dərc edilən “Pəncərəmə düşən işıq” (1962), “Vesna vo mne” (1962), “Duyğular...düşüncələr” (1964), “Dözüm” (1965), “Vaxt var ikən” (1970), “Üzü küləyə” və s. kitablarındakı şeirlərində yaradıcılıq axtarışları davam etdirilmişdir. R.Rza şeirdən şeirə İnsan obrazını daha da dərinləşdirir, yeni boyalar, xarakterlər axtarır və bəşəri fikirlərini ifadə etməyə çalışırdı. Yeni insan təfərrüatları, intellektual təfəkkürü onun İnsanının gələcəyi düşünən, onun taleyindən narahat olan ümumbəşəri mahiyyət qazanmış olur. Şairin dünyanın tanınmış adamları haqqında yazdığı şeirlər İnsan obrazına yeni çalarlar gətirir:

*O göyərçin ki,*
*gəzdi dünyanı diyar-diyar*
*ülfətin carçısı kimi,*
*sənin qəlbinin canlı parçası kimi.*
*Mən demirəm səni anlayıb,*
*sevməlidir hamı.*
*Heç olmasa unudulmasın*
*bütün dillərdə tərcüməsiz səslənən*
*ağ göyərçinin salamı*[36].

R.Rza poeziyası 60-70-ci illərdə polifonizmə, çoxsəsliliyə malik olur. Daimi yaradıcılıq axtarışında olması onun poeziyasında yeni elementlərin, poetik nəfəsin yenilənməsini şərtləndirir. R.Rza sərbəst şeiri bütün komponentləri (strukturu, ideyası, kompozisiyası, poetikası, bədii təsvir və ifadə vasitələri və s.) baxımından yeni bir mərhələ təşkil edir. Bu mərhələ həm də Azərbaycan poeziyasının ən böyük hadisəsi kimi yadda qalır. Poetik dərketmədə yeni yollar, bədii təsvir və ifadə vasitələrinə geniş yer verilir. Sərbəst şeirin bir neçə nəsli R.Rza poeziyasından qidalanır. Şairin sərbsət şeir uğurları işığında ondan sonra ədəbiyyata gələn Ə.Kərim, F.Qoca, V.Səmədoğlu, Ə.Salahzadə, İ.İsmayılzadə kimi şairlər bu yolu tutmuş

---

[36] Rəsul, R. Seçilmiş əsərləri. 5 cilddə, //–II c., -Bakı: -Öndər, -2005. –s.12.

və onu yeni inkişaf mərhələsinə çatdırmışlar.

İkinci fəsildə əldə edilən müddəalar müəllifin elmi jurnallarda dərc edilmiş məqalələrində öz əksini tapmışdır.[37]

Dissertasiyanın **"Sərbəst şeirdə fərdi poetik üslubların formalaşması problemləri"** adlı 3-cü fəsil 3 paraqrafdan ibarətdir. **"Sərbəst şeirin inkişafında forma və məzmun vəhdəti"** paraqrafında Azərbaycan sərbəst şeiri üslub və janrın inkişaf tendensiyası baxımından araşdırılır. 30-cu illərin ikinci yarısından başlayaraq sərbəst şeirin müəyyən qədər geri çəkilməsi və bir də 50-ci illərin ortalarından boy göstərməsi müəyyən dərəcədə ədəbiyyatın, ictimai fikrin ümumi inkişaf prosesi ilə bağlı idi. 50-ci illərdən sonra bu təsir zəifləməyə və şairlərin fərdi intellektual üslubu formalaşmağa başlamışdır. Bu iki səbəbdən baş vermişdir; birincisi, zaman dəyişdikcə zamanın ritmi, hərəkəti də dəyişmişdir. Yenilik onun bu dövr poeziyasının daxili keyfiyyətini müəyyənləşdirir. Cəmiyyətin həyatında baş verən yeniləşmə və yeni həyatın ritmi poeziyasının ahəngində olduğu kimi, məzmununda da özünü biruzə verir. Fəlsəfi baxış, obrazlılıq və ahəng, ritm onun şeirlərinin əsasını təşkil edirdi. 60-cı illərin əvvəllərində çap etdirdiyi "Pəncərəmə düşən işıq" (1962), "Duyğular... düşüncələr" (1964), "Dözüm" (1965) kitablarındakı şeirlərdə şairin poetikasına yeni xüsusiyyətlər əlavə edilir. "Mən torpağam", "Torpaq", "Soruş", "Darısqallıq" və s. şeirlərində bu

---

[37] Azərbaycan sərbəst şeirinin 40-50-ci illər mərhələsi və onun inkişaf yolu // ─ Bakı Slavyan Universiteti. Elmi əsərlər. Bakı, 2019, № 2, s. 216-221; Səməd Vurğun yaradıcılığında sərbəst şeir // ─ Bakı Dövlət Universiteti, Dil və ədəbiyyat. Beynəlxalq Elmi- nəzəri jurnal. Bakı, 2019, №4(112), s. 113-116; Верлибр в творчестве Микаила Мушвига //─ «Вестник» Московского Государственного Лингвистического Университета, гуманитарные науки, 7 (823). 2019, с.167-179; Azərbaycan sərbəst şeirinin axtarış mərhələləri və Nazim Hikmət yaradıcılığı // ─ Filologiya və Sənətşünaslıq. Azərbaycan Milli Elmlər Akademiyası. Bakı, 2021, № 1, s. 125-130; Проблемы Формирования Индивидуального Поэтического Стиля В Вольной Поэзии // ─ Сборник научных статей по итогам работы Международного научного форума НАУКА И ИННОВАЦИИ СОВРЕМЕННЫЕ КОНЦЕПЦИИ, Москва, 2021. с. 62-69; Azərbaycan sərbəst şeirinin Rəsul Rza mərhələsi //─ Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Bakı Slavyan Universiteti. Bakı, 2018, №5, s.86-93;

yeniləşmə və fərdi üslubun formalaşması daha aydın görünür. “Mən torpağam” şeirində insan faktoru və fəlsəfi aspekt fərdi üslubun aparıcı qolunu təşkil edir:

*Mən torpağam, məni atəş yandırmaz;*
*tərkibimdə kömürüm var,*
*külüm var.*
*Mən baharam çəmən-çəmən*
*Çiçəyim var, gülüm var.*
*Mən küləyəm, əsməsəm,*
*kim bilər ki, mən varam.*
*Mən buludam, səhraları susuz görüb,*
*ağlaram.*
*Mən ürəyəm, döyünməsəm*
*ölərəm*[38].

Ə.Kərim, Ə.Kürçaylı, N.Xəzri, N.Həsənzadə, F.Qoca, Ə.Salahzadə, İ.İsmayılzadə və b. yaradıcılığı ilə sərbəst şeirdə fərdi üslublar çoxalır və müxtəlifləşir. Onların yaradıcılığında sərbəst şeirdə misra bölgüsü fikri, düşüncəni, hissi daha şəffaf və görümlü edir ki, bu da bədii fərdi üslubun formalaşmasında müəyyən rol oynayır. Bəlkə də, ilk baxışda pərakəndə görünən misra düzümü fikrin hərəkətini əyaniləşdirmək, detallaşdırmaq funksiyası ilə müəyyən üslubi məqsədəuyğunluğu həyata keçirir. Poetik üslubların formalaşmasında Ə.Kərim əvvəldə gəlir. Onun şeirləri 50-ci illərin sonlarından başlayaraq poeziyada intellektual və fərdi üslubun formalaşmasında mühüm rol oynayır. İlk dəfə olaraq onun poeziyasında ölçülü şeirlə ölçüsüz şeirin birləşməsini və bu birləşmə kontekstində fərdi üslubunun formalaşdığını müşahidə edirik. Əlbəttə, ondan əvvəl poeziyaya gələn B.Vahabzadə, N.Xəzri şeirində bunun müəyyən əlamətlərinə rast gəlinirdi, lakin bu vəzn-ritm qruplaşmasında üslubi istiqamət olaraq meydana çıxmamışdı. Ə.Kərimin fərdi poetik üslubunda detal başlıca rol oynayır; obraz və düşüncəyə simvolik məna verən şair həm də rasional-fəlsəfi

---

[38] Rəsul, R. Seçilmiş əsərləri. 5 cilddə, -I c., //– Bakı: -Öndər, -2005. –s.28.

ümumiləşdirmələrə müraciət edir. "Daş", "Əllər", "Babəkin qolları", "Bakı küləyi", "Mənim həyatım", "Analar ağlar" və s. şeirlərində şair yeni bir poetik sistem təqdim edir. Bu sistem əslində şairin fərdi üslubunun formalaşması demək idi:

*Yarıçılpaq,*
*Qədim insan*
*Düşməninə bir daş atdı,*
*Qana batdı.*
*Daş düşmədi*
*Amma yerə,*
*Uçub getdi*
*üfüqlərdən-üfüqlərə.*
*Deməyin ki, daş yox oldu,*
*Daş çevrilib bir ox oldu*[39].

"Babəkin qolları" şeiri də şairin fərdi poetik üslubunun formalaşmasının ən yaxşı nümunələrindən biri kimi səciyyələnir. Şair bu şeirində də təsvir etdiyi hadisəni canlandırır, əyaniləşdiririr və obrazlılıq qatır. Burada da detal şeirdə aparıcı olur, lakin detalın tez-tez dəyişməsi və simvolik məna daşıması onun poetik funksiyasını artırır.

Ə.Kərimlə birgə bu fərqlənmə bir qədər fərqli şəkildə B.Vahabzadə, N.Xəzri, H.Arif, C.Novruz, F.Qoca yaradıcılığında paralel olaraq baş verdi. 60-cı illərdə isə artıq poeziyada fərdi üslub əlvanlığı özünü daha qabarıq göstərirdi. Bunu nəzərdə tutan Y.Qarayev və Ş.Salmanov poeziyada şəxsi mənəvi başlanğıcın qüvvətlənməsinə diqqət çəkərək yazırdı: *"Əslinə baxsan, bu proses o qədər də yeni hadisə deyildi. O, özünü hələ bundan əvvəlki dövrdə, yəni 50-ci illərin ortalarında hiss etdirmişdi və buna görə belə bir fikir doğrudur ki, 60-cı illər birdən-birə hazırlanmamışdır, məhz bu dövrün başlanğıcında "ötən onilliyin dərinliklərində tədricən yetişən və təşəkkül tapan keyfiyyətlər toplanmış və necə deyərlər, dialektik*

---

[39] Əli, K. Seçilmiş əsərləri. 2 cilddə -I c., //– Bakı: -Azərnəşr, -1974. –s. 54.

*cəhətdən ziddiyyətli inkişaf keçmişdir"*[40].

Sərbəst şeirdə fərdi poetik üslubun formalaşmasında rol oynayan amillərdən biri də şeirə gələn yeni nəsillər olmuşdur. Zaman dəyişdiyi kimi, poeziyaya gələn nəsillərin poetik ifadə üsulları, formaları, bədii təsvir və ifadə vasitələri də dəyişməyə doğru gedir. F.Qoca, C.Novruz, A.Abdullazadə, F.Sadıq, Ə.Salahzadə, İ.İsmayılzadə, S.Sərxanlı, E.Baxış, Y.Həsənbəy, V.Cəbrayılzadə və b. stereotip poetik təfəkkürdən imtinası, həm də yeni fərdi poetik üslubların formalaşmasını zəruri edirdi. Onların şeirlərində təsvir olunan hadisə və proseslərin bədii tədqiqi, detallaşdırma və xronikallıq mühüm yer tuturdu.

B.Vahabzadə şeirlərində zaman qarşısındakı mənəvi cavabdehlik aktının poetik xəritəsini verir. "Nəsə çatmır" şeirində şair insanın istəkləri ilə reallığın heç də həmişə uyğun gəlmədiyini, dünyanı dərketmənin konturlarını cızır. İnsan yazır, oxuyur, yaşayır, nələr isə əldə edir, lakin həmişə nəyin isə çatmadığını hiss edir:

*Könlümüzdən*
*Keçənlərin arxasınca biz qoşuruq*
*Çalışırıq, vuruşuruq.*
*Səsə düşür məramımız,*
*Əməlcə bu səsə çatmır.*
*Düzü budur:*
*Sözümüzdə hər şey çatır,*
*Özümüzdə nəsə çatmır*[41].

Şairin İnsan və Zamanla bağlı poetik fikirləri yalnız bir neçə şeirdə deyil, bütün yaradıcılığı boyu davam edir. Şair nədən yazır-yazsın lirik-fəlsəfi düşüncələr kontekstinin mərkəzində Zaman və İnsan dayanır. B.Vahabzadənin sərbəst şeirlərində zaman, vaxt, dünya, ömür haqqında fəlsəfi, poetik qənaətlər yaradıcılığının ana xəttini təşkil edir. Lakin onu da demək lazımdır ki, bu poetik

[40] Qarayev, Y., Salmanov Ş. Poeziyanın kamilliyi //–Bakı: - Yazıçı, -1985. –s. 60.
[41] Vahabzadə B. Seçilmiş əsərləri. 2 cilddə, -I c., //– Bakı: -Azərbaycan Dövlət Nəşriyyatı, -1974. –s. 187.

qənaətlərdə ümid və inam pafosu başlıca yer tutur. "İntizar", "Bağçamdan axan su", "Dağ seliyəm", "Deyirlər", "Ata yurdu", "Tərksilah", "Saat", "Baş", "Əks-səda" və s. onlarla şeirlərində Zaman və İnsan tandemi uğurlu poetik qənaətlərlə müşahidə olunur. B.Vahabzadənin sərbəst şeirlərində təzad-paralellər müxtəlif şəkildə üzə çıxır. Bunları aşağıdakı kimi qruplaşdırmaq olar:

*a) poetik-üslubi strukturda;*
*b) təzadlı fikir və qafiyələrdə;*
*c) təzad-vurğularda;*
*d) qarşılaşdırmalı prinsipdə;*
*e) çarpaz fiqurlar və təzadlar;*
*e) assosiativ səsləşmə və əlaqələndirmələrdə və s.*

Bu mərhələ sərbəst şeirlərdə poetik üslubi struktur başlıca yer tutur; şeirin əsasını, strukturunu poetik müxtəliflik və çoxsəslilik təşkil edir.

3-cü fəslin **"Azərbaycan sərbəst şeirində yeni istiqamətlər və təmayüllər"** adlı 2-ci paraqrafında yeni üslubi istiqamətlər araşdırılır. Qeyd olunur ki, Ə.Kərimdən sonra Ə.Salahzadə, R.Rövşən, İ.İsmayılzadə, V.Səmədoğlu və b. sərbəst şeirin dərininə inkişafında mühüm rol oynayır. Onların şeirləri sərbəst poetik formanı yalnız struktur baxımından deyil, poetika baxımından da zənginləşdirmişdir. Lakin elə şairlər də vardır ki, onların yaradıcılığında sərbəst şeir heca ilə qoşa çıxış etdiyindən sırf sərbəst şeirçilər kimi tanınmamış, ya da ki, onların yaradıcılığına az diqqət yetirilmişdir. B.Vahabzadə, N.Xəzri, X.Rza, M.Araz, F.Qoca, F.Sadıq, N.Həsənzadə, Qabil və b. yaradıcılığında sərbəst şeir vəzn, fonetik sistem, bədii təsvir və ifadə vasitələri, ritm baxımından inkişaf etdirmişdir. Halbuki bu şairlərin sərbəst şeirin yeni inkişafı yolunda və təşkilində müəyyən rol oynamışdır. Onların şeirlərində sərbəst şeirimizə xas olan ritmik-intonasiya vəhdəti başlıca yer tutur. Bu şeirlərin əsasında ritmik vahidlər-taktlar mühüm yer tutur. Heca vəznində müxtəlif sayda hecalar poetik mətn üçün əsas olduğu kimi, sərbəst vəzndə həmin funksiyanı ritm-intonasiya təşkil edir. Bu mənada F.Sadığın sərbəst şeirlərini xüsusi qeyd etmək olar. F.Sadıq sərbəst şeirə onun üçüncü və yüksələn xətlə inkişaf edən bir mərhələsində gəldi.

Azərbaycan sərbəst şeirinin forma, struktur, ritm, intonasiya, ahəng baxımından inkişafında Fikrət Qocanın da yaradıcılığı öndə gəlir. Hətta deyə bilərik ki, bu iki Fikrət sərbəst şeirin 50-ci illərindən 2000-ci illərə kimi bu poetik formanı daha da zənginləşdirmişlər. F.Qocanın şeirləri 50-ci illərin ortalarından çap edilir. Bu zaman sərbəst şeir özünün ən çətin günlərini yaşayırdı. Hətta özünə ustad hesab etdiyi R.Rzanın "Lenin" poeması istisna olunmaqla 50-ci illərin ortalarına qədər bu poetik formanı heca ilə eyni səviyyəyə qaldırmaqda çətinlik çəkirdi. M.C.Cəfərov da bu fikirdədir ki, *"şeirin bu şəkli...50-ci illərə qədər özünün tam milli formasını tapa bilməmişdi"*[42]. Bu baxımdan sərbəst şeirin sərhədlərinin genişlənməsində yeni qüvvələrin rolu danılmazdır. Buna görə də Ə.Kərim, F.Sadıq, Ə.Kürçaylı, F.Qoca, N.Həsənzadə kimi şairlərin sərbəst formaya müraciət etmələri bu poetik formanın populyarlığını artırmış oldu. F.Qocanın şeirlərindəki spesifik dil görümləri, detallar, fraqment-cizgilərlə konkret obrazlılıq yaratmağa nail olur. Təsvir etdiyi obyektin daxili mahiyyətini açmaqla yanaşı, izlədiyi ritm və intonasiya ilə poetik formanın yeni nümunələrini yaradır. S.Abdullayev şairin poetik nitqindəki bu görümlülüyü və fraqmentallığı yüksək qiymətləndirərək yazır: *"F.Qocanın şeirlərində təkrar sözlərdən incə təsvir detallar, vəziyyət-təfərrüat ştrixləri kimi istifadə olunmasının özümlü nümunələrinə rast gəlirik"*[43]. F.Qoca sərbəst şeirinin ən əsas cəhətlərindən biri də şeirdə predmeti detallaşdırma və konkretləşdirmədən ibarətdir. Onun yaradıcılığında poetik detallaşdırma və konkretləşdirmənin olduqca maraqlı və çeşidli nümunələrinə rast gəlmək olar. "Ölülər qorxmur" şeirində təkrar və bir-birinə yaxın sözlərdən istifadə etməklə fikir sahəsini genişləndirir, konkret söz-radiuslarla miqyaslı ölçülər qazanır.

Sərbəst şeirin bu mərhələsində heca və əruzla yanaşı, sərbəstdə də ən yaxşı poetik nümunələr yaradan Qabilin sərbəst şeirləri bu poetik formanın inkişafında əhəmiyyətli rol oynayır. Bu cəhətdən

---

[42] Cəfərov, M.C. Şeirimizin dili və vəzni haqqında Füzuli düşünür //– Bakı: -Elm, -1959. -s.213.

[43] Abdullayev, S. Dil və bədii qavrayış //– Bakı: Yazıçı, -1989. –s.19.

Qabilin yaradıcılığı F.Sadığın formadan istifadəsi ilə anologiya təşkil edir. Onun poeziyasında sərbəst şeir poetik düşüncələr xəritəsini daha da zənginləşdirir, poeziyasına yeni ölçülər, intonasiyalar gətirir və onu gələcəyə doğru hərəkət etdirir. Şeirlərindəki poetik melodiya fikrin inkişafını sürətləndirir və ona yeni poetik ömür qazandırır. Əgər onun hecalı şeirləri vəznə əsaslanırsa, sərbəst şeirləri isə əsasını təqtilər təşkil edən ritmə əsaslanır. Bu ritmlə şair həm də bir vətəndaşlıq narahatlığını ifadə edə bilmişdir. *"Xaric səslənirik biz, /Səhv düşəndə yerimiz", "Müsibət oluruq biz, /Səhv düşəndə yerimiz", "Gərəksiz oluruq biz, /Səhv düşəndə yerimiz"*[44] və s. bənd sonrası müstəqil təkrarlar şeirin ideyasını möhkəmləndirir, poetik qənaətlərə zənginlik gətirir.

"Tramvay parka gedir" şeirinin özünəməxsus ritm və intonasiyası var, bununla yanaşı, şeirin məzmunu şairin vətəndaşlıq mövqeyini ən yaxşı şəkildə əks etdirir. Şair bu şeirində də son dərəcə yeni bir intonasiya ilə insan mənəviyyatını, zövq və düşüncə müxtəlifliyini müxtəlif rakurslardan təsvir edir. Şəhər, dünya, insanlarla bağlı şair düşüncələrini bu istiqamətdə poetik şəkildə ifadə edir:

*Gecə saat bir,*
*Tramvay parka gedir*
*Ləngərlı.*
*Bu ləngər bilinməzdi-*
*Vaqon dolu olsaydı sərnişinlərlə.*
*Uzundur parkın yolu,*
*Küçələr sükut dolu*[45].

Qabilin sərbəst şeirləri ilə şeirlərindəki sərbəstlik bəzən bir-birinə qarışır. Şeirlərinin strukturundakı polifonizm məzmun çalarlarının çatdırılmasını və emosional təsir imkanlarını artırır. "Gedən yerim olaydı" şeirində də eyni emosiya ilə poetik məkanda yeni bir intonasiya yaratmış olur.

---

[44] Qabil. Seçilmiş əsərləri //– Bakı: -Azərnəşr, -1988. –s.72.
[45] Qabil. Seçilmiş əsərləri //– Bakı: -Azərnəşr, -1988. –s.297.

M.Araz, X.Rza, S.Rüstəmxanlı, S.Sərxanlı yaradıcılığında sərbəst şeirin ənənəvi mövzuda yeni nümunələri yaranır. Əgər əvvəllər sərbəst şeirdə ən çox sərbəst mövzular qələmə alınırdısa, 70-80-ci illərdə buraya milli ruhlu mövzular da əlavə olunur ki, bu da sərbəst şeirin mövzu arenasını genişləndirmiş olur. M.Arazın "Nazimə Türkiyə sovqatı" şeiri də assosiativ düçüncəsi, bədii detallaşdırma, asosiativ sferada genişlik baxımından ən yaxşı nümunələrdən biri hesab oluna bilər. Vətəndən uzaqda ölmüş türk şairinin qəbrinin üstünə şair Oşaninin Türkiyədən bir ovuc torpaq gətirərək tökməsi M.Arazda assosiativ düşüncə yaradır və bu detalla N.Hikmətin taleyi canlandırılır. "Deyirlər/Oşanin Türkiyə torpağı/gətirib,/Nazimin/qəbrinə səpibdi/Nazimin qəbri də/Nazimin qəlbinə səpibdi" poetik mətnindəki söz qruplarının yaxınlığı və doğmalığı "O torpaq içində/görünməz/Bir ana dodağı gətirib-/Nazimin qəbrini öpübdü/Nazimin qəbri də/Nazimin qəlbini öpübdü"[46] assoasiasiyası poetik formanın maksimum ifadəsini şərtləndirir və biz şeir boyu "infarktım" demiş Nazim Hikmətin taleyini, kimliyini bir daha dərk etmiş oluruq.

Altmışıncı illərdə sərbəst şeirin əsas xüsusiyyətlərini özündə cəmləşdirən və səciyyələndirən cəhətlər çoxdur. Assosiativ qavrayış və fikrin poetik tutumu bu dövr sərbəstinin orijinallığını təmin edən faktorlardandır. Bu üslubi zənginliklər həm də Azərbaycan sərbəst şeirinin inkişafının şərtləndirilməsində mühüm rol oynayır və şairin poetik üslubunu müəyyənləşdirir.

Bu fəslin **"Azərbaycan sərbəst şeirində Əli Kərim üslubu"** adlı 3-cü paraqrafında Əli Kərimin yaradıcılığı araşdırılır. Tənqidçi C.Yusifli şairin yaradıcılığının mərhələ təşkiletmə funksiyasını bütün detalları ilə açmağa nail olur[47]. Ədəbiyyatşünas Vaqif Yusifli də "Poeziyanın illəri və yolları" monoqrafiyasında "Poeziyada Əli Kərim mərhələsi" adlı bir yarımfəsil həsr etmiş və tənqidçi

---

[46] Araz, M. Oxucuya məktub. Şerlər //– Bakı: Gənclik, -1978. –s. 169.

[47] Yusifli, C. Azərbaycan poeziyasının Əli Kərim mərhələsi //– Bakı: -Adiloğlu, -2005. -176 s.

*C.Yusiflinin bu fikri ilə razılaşmışdır*[48]. Fikrimizcə, bu təsbit tamamilə doğrudur və Ə.Kərim poeziyasının, eləcə də, sərbəst şeirinin mahiyyətini bütünlüklə əks etdirir. Bu tədqiqatçılardan xeyli əvvəl ədəbiyyatşünas A.Abdullazadə Əli Kərim yaradıcılığını poeziyada yeni mərhələ adlandırmasa da, R.Rza poeziyası ilə mövzu, məzmun və problematika baxımından novator mahiyyətdə olduğunu və fərqli cəhətlərini təhlil edərək müəyyən nəticələrə gəlirdi. Onun gəldiyi nəticələrdən biri belədir: *"İstər Rəsul Rza, istərsədə Əli Kərim poetik fikri birbaşa, publisistik yolla deyil, məhz obrazlar, bənzətmə və təşbehlər, metafora və assosiasiyalar vasitəsilə təqdim edir, saydığımız bu bədii xüsusiyyətlərin ifadəsində isə öz müstəqil tapıntıları ilə tamamilə fərdiləşirlər..."*[49].

Ə.Kərimin sərbəst şeirdə yazdığı ilk şeirlərdə özünəməxsusluq, fəlsəfi ümumiləşdirmə, obrazlılıq poetik fikrin mahiyyətini orijinallıqla əks etdirir. Əli Kərimin sərbəst şeirinin mərhələ təşkil etməsində bir neçə faktorlar çıxış edir ki, bu amilləri aşağıdakı kimi göstərmək olar:

1. Ə.Kərim poeziyasında forma və sənətkarlıq axtarışlarının yeniliyi və müxtəlifliyi;
2. 50-60-cı illərdə mövcud olan poetik məktəblərin (Səməd Vurğun və sərbəst şeir) heç birinə daxil olmaması və bənzərsizliyi;
3. Sözün semantikasından maksimum şəkildə istifadə etməsi;
4. Şeirdə İnsan faktoruna və onun duyğu və düşüncələrinə üstünlük verməsi;
5. Poeziyada assosiativ poetik təfəkkürün üslubi müstəqilliyini, ifadə çalarlarını artırması;
6. Poetik detallarla mövzunun mahiyyətini görümlü etməsi;
7. Fəlsəfi fikir dərinliyinin obrazlarla, lövhələrlə və obrazlılıqla paralel təsviri;
8. Sərbəst şeirin forma, struktur özünəməxsusluğu, vəzn, qafiyə və bölgü sisteminin orijinallığı; və s.

Ə.Kərimin sərbəst şeiri mürəkkəb konstruksiyadan daha çox,

---

[48] Yusifli, V. Poeziyanın yolları və illəri (1960-2000-ci illər) //– Bakı: – Mütərcim, -2009. - 404 s.

[49] Abdullazadə, A. Şairlər və yollar //– Bakı: Elm, -1984. –s.217.

sadə konstruksiya üzərində qurulur; həyatın hər hansı bir detalının təkamül yoluna poetik məna verilir. Lakin bu sadəliyin qəlibində mürəkkəb, bir az da dərinə işləyən ikinci bir fikir doğulur. Bu fikirdə həm də şairin poetik niyyəti, qayəsi aşkarlanır. Şeirin adındakı məna ilə şeirdən doğulan poetik nəticə bəzən tamamilə fərqli olur. "Telefonçu qız", "Gül və çörək", "Tənhalıq boşluq deyil", "Coğrafiya müəlliminin şəhadət barmağı haqqında ballada", "Metronun yaylı qapıları", "N3702" və s. onlarla şeirlərində şeirin adı ilə məzmunu arasında müəyyən məsafə olur.

Ə.Kərimin sərbəst şeirlərində hər şey bədii detal və metaforalar vasitəsilə canlandırılır, əyaniləşdirilir. Belədə fikrin fəlsəfi ifadəsi və poetik qəanətlərin verilməsi üçün imkanlar genişlənir. Şair orijinal metaforalar və təşbehlər vasitəsilə hər şeyi görümlü edir; kədərin də, sevincin də, vüsalın və hicranın da rəsmini çəkir. Məlum bədii detallara belə məlum olmayan məna əlavə etməklə oxucunu düşündürür.

Üçüncü fəsildə əldə edilən müddəalar müəllifin elmi jurnallarda dərc edilmiş məqalələrində öz əksini tapmışdır.[50]

Dissertasiyanın **"Müstəqillik ərəfəsi və dövrü sərbəst şeir problemləri"** adlı 4-cü fəslinin **"Azərbaycan sərbəst şeirində assosiativlik və çoxsəslilik"** paraqrafı sərbəst şeirin inkişafında poeziyaya yeni gələn gənc qüvvələrin yaradıcılığı araşdırılır. Onların şeirlərindəki forma yenilikləri, poetik çoxsəslilik, qulağın

---

[50] Azərbaycan sərbəst şeirində Əli Kərim faktoru. AMEA-Poetika.izm. //– Bakı, 2021, s. 96-103; Bəxtiyar Vahabzadə sərbəst şeirinin məna və üslub imkanları. Beynəlxalq elmi jurnal 1.518 Yüksək İmpakt Faktorlu. /-Bakı,2021,s 89-94; Azərbaycan sərbəst şeirinin səksəninci illər mərhələsinin inkişaf problemləri. V Uluslararası Beşeri ve Eğitim Bilimleri Kongresi materialları. 18-20 oktyabr, 2022; Azərbaycan sərbəst şeirində struktur və kompozisiya yeniliyi. Filologiya məsələləri./-Bakı, 2023,№ 1, s. 420-428; Ələkbər Salahzadə sərbəst poeziyanın görkəmli nümayəndəsi kimi. Filologiya məsələləri. AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutu./-Bakı, 2018, №19,s.228-237; İsa İsmayılzadə assosiativ şeirin nümayəndəsi kimi. Beynəlxalq Elmi Konfrans //– Bakı, 2018, s. 58-60; Azərbaycan sərbəst şeirinin səksəninci illər mərhələsinin inkişaf problemləri. V Uluslararası Beşeri ve Eğitim Bilimleri Kongresi materialları. 18-20 oktyabr, 2022; Azərbaycan sərbəst şeirində struktur və kompozisiya yeniliyi. Filologiya məsələləri //– Bakı, 2023, № 1, s. 420-428; və s.

öyrəşmədiyi ifadə və təsvir vasitələri poeziyada yeni bir qüvvənin gəlişindən xəbər verirdi. R.Rza bu gəncləri müdafiə etməklə, həm də sərbəst şeirin yeni mərhələsinin keşiyində dururdu. Görkəmli şair özünün "Qayğı sözü və qayğı özü" məqaləsində gənclərin hər birinin yaradıcılığına qayğı və tələbkarlıqla yanaşırdı[51].

Yaradıcılığına yüksək qiymət verdiyi və böyük ümid bəslədiyi gənclər içərisində Ə.Salahzadə, V.Vəkilov (Səmədoğlu), İ.İsmayılzadə, eləcə də bu illərdə ilk şeirləri çap olunan bir çox gənclər var idi. Ə.Salahzadənin ilk şeirlərindən olan "Çörək ətirli tüstü" (1961), "Avarqollular" (1962), "Kibrit çöpləri" (1963) və s. şeirlərində sərrast, yaddaqalan poetik müşahidələr etmiş, bədii təsvir və ifadə vasitələri işlətmişdir. Bu orijinallıq gənc şairin poetik obrazlarında və dilində də özünü göstərirdi. "Avarqollular" şeirində balıqtutanların dənizdə balıq macərasını son dərəcə poetik dillə təsvir edir. F.Qoca, C.Novruz, N.Həsənzadə, İ.İsmayılzadə və b. müharibə mövzusu özünəməxsus şəkildə poetik təsvir obyekti olmuşdur. Bu dövrdə ilk şeirləri çap olunan R.Rövşən, S.Rüstəmxanlı, S.Sərxanlı, Y.Həsənbəy, T.Abdin, A.Mustafazadə və b. sərbəst şeirin sıralarını bir qədər də genişlətdilər; bu poetik formada yeni fərdi üslubi istiqamətlər açıldı. Sərbəst şeirçilərin yaradıcılığında müharibə mövzusu da özünəməxsus yer tutur. Bu şeirlərdə müharibənin gətirdiyi maddi və mənəvi itkilər nağılvari şəkildə təsvir edilirdi. Ə.Salahzadə ilk yazdığı sərbəst şeirlərini bu vəznin "qayda-qanunlarına" uyğun olaraq yazırdı; bu vəzn üçün ən mühüm şərtləri-ritm, ahəng, intonasiyanı gözləyir və fikrini poetik şəkildə çatdırmağı üstün tuturdu. Onun müharibə ilə bağlı yazdığı şeirlərdə pafos yox, poetik dərketmədə görümlülük başlıca yer tutur:

*Doğulduq 41-də,*
*davayla yaşıd olduq,*
*Özümüz də bilmədən*
*dördcə il*
*dava havasında yaşa dolduq.*

---

[51] Rəsul, R. Qayğı sözü və qayğı özü //– Ədəbiyyat və incəsənət, -1965, 15 fevral. –s. 8.

*dörd yaşımızda,*
*nə yaxşı,*
*dörd yaşında qaldı dava!*
*...Qırx birdə doğulanlar!..*
*Bu bir nəslin yaş Adı.*
*Doğulduq dava ili,*
*Qaldıq dava yaşıdı!..*[52]

Bu illərdə yaradıcılığa yeni başlayan İ.İsmayılzadənin "1941" şeirinin özünün bədii yükü və məntiqi vardır. Bu adda müharibəyə yazılan ilk şeir olmaqla yanaşı, şeirin ideya-məzmun qatının çoxçalarlığı sərbəst şeirdə yeni istiqamətin formalaşdığını göstərirdi. "1941" rəqəmi şairin təvəllüdüdür, lakin hər yerdə müharibənin başlandığı il kimi götürülür. Bu rəqəm hamıda eyni assosiasiya doğurur, ancaq bu tarixin lirik qəhrəmanın (burada şairin) təvəllüdü olması ona başqa prizmadan baxmasını zəruri edir. Bu rəqəmi yer kürəsindən keçən "döyüş səngəri", "nallı dabanı" ilə vətən əsgəri yazmışdır:

*Badələrin səsilə*
*oyatmaq istəmirəm,*
*xatirə beşiyində*
*uyumuş həsrətləri,*
*Küsəyən qardaşımın*
*qabda qalan payıtək*
*soyumuş həsrətləri*
*oyatmaq istəmirəm*[53].

Yeni dövr sərbəst şeirinin başlıca xüsusiyyətlərindən biri assosiativlikdir. Bu dövrdə yazılan sərbəst şeirlər yadda qalan, konkret, assosiativ təfəkkürə əsaslanan obrazlarla zəngindir. Hər bir predmetə yanaşdıqda onun ən mühüm, özünəməxsus xüsusiyyətlərini tapır və onun üzərində qurulur. Bu xüsusiyyət Ə.Salahzadə, F.Sadıq, İ.İsmayılzadə, A.Abdullazadə sərbəst şeirində daha qabarıq görünür.

---

[52] Salahzadə, Ə. Od heykəli (şeirlər və poema) //– Bakı: -Gənclik, -1970. –s.65.
[53] İsmayılzadə, İ. Gözləyin, dünyaya qayıtmağım var//– Bakı: -Qanun, -2006. –s.36.

Məlumdur ki, Araz çayının obrazı poeziyamızda çox zəngindi. Ə.Salahzadə isə ona son dərəcə orijinal yanaşır; sadə bir detalla və bədii obrazla çayın obrazını yaradır. Şairin təşbehlərində, ifadə vasitələrində bənzəyənlə bənzədilən arasında bir assosiativlik vardır. Bu da sərbəst şeirdə ən yaxşı şəkildə Ə.Salahzadə və İ.İsmayılzadə poeziyasında üzə çıxır. Onların poeziyası obrazlı təfəkkürün poetik ifadəsi kimi səslənir. Poetik təfəkkür və obrazlılıq onun poeziyasının əsasını təşkil edir. Şeirlərində predmet və həyat hadisələrinin tərəflərini orijinal şəkildə poetik müqayisəyə gətirir, necə deyərlər, predmet və hadisələri konkret detallarla poetikləşdirir. Poetik mətndə təzadlar, assosiativ fikirlər bir-birini əvəz edir və nəhayət şairin gəldiyi poetik qənaət effektiv sonluğa gətirib çıxarır.

Yeni dövr sərbəst şeirinin əsas xüsusiyyətlərindən biri də poetik görümlülükdür. Sərbəst şeirin, hər şeydən əvvəl, göz şeiri olduğunu nəzərə almış olsaq, onda onun poeziyasının mahiyyəti bir qədər də aydınlaşmış olar. Şeirin görümlülüyü, onun məna qatının düşünülməsini də zəruri edir. Poetik mətnin çevikliyi, tez-tez müxtəlif situasiyalara girməsi kinokadr kimi bir-birini əvəzləyir. Bəzən bu hərəkətlilik bir misra daxilində belə baş verir. Hadisənin, predmetin əyaniləşməsi və poetik görümlülük R.Rövşənin ilk dövr yaradıcılığının da əsas xüsusiyyətlərindən birinə çevrilir. R.Rövşənin bu illərdə yazdığı şeirlər nə qədər sərbəstliyi ilə seçilsələr də, əsasən heca üstündə yazılmışdı. Onun "Göy üzü daş saxlamaz" (1987) kitabına qədər keçdiyi yol, həm də sərbəst şeirin yeni forma xüsusiyyətlərini bəlirləyir. Bu şeirlərindən başlayaraq gələnəksəl milli şeirlə sərbəst şeirin yeni modelini yaratmaq, onları sintez etməyə üstünlük verir.

R.Rövşənin hər bir şeirinin özünəməxsus stixiyası var; mütləq bir obraz yaradır və bu obrazı sonacan tanıtmaqla, izah etməklə məşğul olur. Özü də bu obrazların hər birində olan mistika oxucunu da bu ruha kökləyir. Oxucu da bu obrazın daxili dünyasına köklənir. İkinci əsas xüsusiyyəti şairin metaforik obrazlardan zənginliklə istifadə etməsidir. Çox zaman şeirin adından başlanan bu metaforik düşüncə sözdən misraya, misradan sərbəst bölgüyə, bölgüdən bütöv şeirə keçir və şeir boyu davam edir. Özü də burada məntiqlə hiss bir-birini əvəz edir, bir çox hallarda bir-birini tamamlayır. "Durub göy

üzünə daş atan oğlan, /göy üzü daş saxlamaz",-metaforik düşüncəsi müxtəlif variasiyalarla sonacan lirik qəhrəmanın özünüdərk prosesini qavramağa kömək edir.

Sərbəst şeirin 60-70-ci illər mərhələsinin özünəməxsus inkişaf yolunda baş verən prosesləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Bu mərhələdə sərbəst şeir üslubi cəhətdən zənginləşir və genişlənir;

2. Yeni qüvvələrin gəlməsi ilə fərdi poetik üslublar çoxalır;

3. Assosiativ poeziya daha da genişlənir və özünü təsdiq edir;

4. Çevik variasiyalar, fikrin mövqe lastikliyi sərbəst poetik forma üçün daha səciyyəvi və effektiv olur;

5. Sərbəst şeirdə operativ qavrayış və ritmik üzvlənmə, intonasiya ön plana keçir;

6. Əvvəlki inkişaf yoluna nisbətən sərbəst şeirin sərbəstliyi bir qədər də artır:

7. Sərbəst şeirdə poetik obrazlılıq, ekspressivlilik, emosionallıq yeni mərhələyə daxil olur.

Dördüncü fəslin **"Müstəqillik ərəfəsi və dövrü sərbəst şeirin yeni mərhələsi kimi"** paraqrafında müstəqillik ərəfəsi və dövrü sərbəst şeirin yeni mərhələsi kimi tədqiq olunur. Təkcə ona görə yox ki, bu dövrdən xalqın siyasi təfəkküründə olduğu kimi, poetik düşüncəsində də böyük dəyişikliklər baş verir, yeni bir siyasi era başlayır. Çox zaman ədəbiyyatın inkişafını tarixi hadisələrlə uyğunlaşdırmaq doğru nəticələrə gətirib çıxarmır. Ona görə ki, ötən əsrin 20-ci illərindən start götürən bu poetik forma mərhələ-mərhələ irəliyə doğru böyük bir yol keçmişdir. Müstəqillik dövründə isə sərbəst şeirin inkişafını şərtləndirən amillərin çoxluğu və özünəməxsusluğu onu əvvəlki mərhələlərdən fərqləndirir. Bu dövrün sərbəst şeir xüsusiyyətlərini aşağıdakı şəkildə ümumiləşdirmək olar:

1. Dövrün sərbəst şeiri özündən əvvəlki ənənəni yeni mərhələdə inkişaf etdirir.

2. Sərbəst şeirin poetikası zənginləşir və yeniləşir.

3. Bu mərhələdə sərbəst şeirin bundan əvvəlki dövrdəkindən çox şairlər yazıb yaradır, sərbəst şeir axını baş verir və bu poetik forma, belə demək mümkünsə, bir qədər də kütləviləşir.

4. Sərbəst şeir fərdi üslubların çoxluğuna qovuşur.

5. Sərbəst şeirin dili, poetik formasında dəyişikliklər olur, danışıq nitqi və nəsr elementləri (epiklik) artır.

6. Poeziya siyasi təfəkkürdən gələn azadlığa qovuşduğu üçün sərbəst şeir də ideya və poetika cəhətdən azad prinsiplərlə yazılır, yəni Azərbaycan sərbəst şeiri Qərb poeziyasına bir qədər də yaxınlaşır.

7. Sərbəst şeirin poetik dili, bədii təsvir və ifadə vasitələri dəyişdiyi kimi, obrazlar sistemi də dəyişir və yeniləşir.

Bir şey aydındır ki, müstəqillik dövrü sərbəst şeiri mövzu, ideya, struktur, üslub, bədii təsvir və ifadə vasitələri baxımından son dərəcə zənginləşir. Bu mərhələdə 60-cı illərdə yaradıcılığa başlayan və özünü təsdiq edən F.Qoca, F.Sadıq, A.Abdullazadə, N.Həsənzadə, Ə.Salahzadə, İ.İsmayılzadə, V.Əziz kimi şairlər fərdi üslublarını qoruyub saxlayırlar. Ondan sonrakı nəsil sərbəst şeirçilərdən V.Səmədoğlu, R.Rövşən, S.Rüstəmxanlı, S.Sərxanlı, V.Cəbrayılzadə, T.Abdin, V.Bəhmənli, T.Həmid, N.Kəsəmənli, Ç.Əlioğlu, E.Baxış, V.Bəhmənli, R.Behrudi və b. yaradıcılığı ilə sərbəst şeir palitrası müxtəlifləşir. 90-cı illərdə isə sərbəst şeirə gələn gənc şairlərin sayı artır. Lakin bu kütləviləşmənin içərisində öz fərdi üslubları ilə seçilən sərbəst şeirçilər milli sərbəst şeiri forma və məzmun baxımından inkişaf etdirmişlər.

V.Səmədoğlunun ilk şeirlərindəki obrazyaratma funksiyası tamamilə yenilikçi düşüncəyə əsaslanırdı. Şair obrazı bəzən bir misrada, bəzən isə bir neçə misrada yaratmağa müvəffəq olurdu. “Günün baxtı” kitabında “Atamın məktublarına cavab” silsiləsindən yazdığı şeirlərdən birində atası S.Vurğunun obrazını yaradırdı. V.Səmədoğlunun atası haqqında yazması çox çətin olsa da, S.Vurğunun heykəli önündə atası haqqında düşüncələrini son dərəcə orijinal şəkildə ifadə edir. Dünyanı dolaşıb hər gəldiyində atasının onu yola salması və qarşılaması onda şairin heykəlinə baxan insanlardan fərqli duyğular yaradır:

*Yanından keçənlər,*
*ayaq saxlayıb bir an*
*baxırlar sənə,*
*Səməd Vurğuna.*
*Mən də baxıram.*

*Baxıram*
*cavan ölmüş Məhbub nənəmin*
*Salahlıdan gedib*
*heykəl olmuş*
*qarayanız oğluna...* [54].

80-ci illər sərbəst şeirinin inkişafı bir neçə faktorda daha qabarıq üzə çıxır; bu dövrdə sərbəst şeirə yeni qüvvələrin gəlməsi onun ritm və ahəngini dəyişdiyi kimi, struktur və kompozisiyasını da yeniləşdirir. V.Cəbrayılzadə, V.Bəhmənli kimi gənclərin sərbəst şeirə gəlişinə əlavə dividentlər gətirir. Bu dövr sərbəst şeirində, bir qədər də dəqiqləşdirsək, heca vəzni ilə yaxınlıqlar baş verir. Bəzi heca şeirlərini sillabik tərtibata salmaq mümkün olduğu halda, sərbəst formada yazılan şeirləri də bənd sisteminə salmaq mümkün olur. Bəzən isə şeirin tərtibatındakı sərbəstlik heca vəzni ilə müşaiyət olunur. Buna qarışıq üslub də deyə bilərik. Bütövlükdə bu dövrüdə Azərbaycan poeziyasının həm fikir sərhədləri, həm də üslubi istiqamətləri genişlənmişdir. Əlbəttə, hər hansı bir şairin, yaxud yazıçının yaradıcılığını konkret olaraq hər hansı bir cərəyan və axınlara aid edilməsi hər zaman özünü doğrultmur. Tutaq ki, simvolist adlandırılan şairin yaradıcılığını simvolizmə gətirib çıxaran amillərin də rolu əsas olur. Belə ki, yaradıcılıq cərəyanda yox, hər hansı cərəyanlar yaradıcılıqda özünü ehtiva edir və təsdiqini tapır.

Müstəqillik dövrü Azərbaycan sərbəst şeiri yalnız mövzu və məzmun baxımından deyil, ritmik davranış və intonasiya baxımından da dəyişmişdir. Bu mərhələdə sərbəst şeir struktur baxımından dəyişmiş, yeni ritm və intonasiya ilə zənginləşmişdir. Rüstəm Behrudi, Etimad Başkeçid, Rəşad Məcid, Səlim Babullaoğlu, Zahir Əzəmət, Qəşəm Nəcəfzadə, Əjdər Ol və b. onlarla şairin yaradıcılığında sərbəst şeirin strukturu zəngin və çoxqatlı olmuşdur. 80-ci illərin sonlarında "Salam, dar ağacı", "Şaman duası" kitablarını dərc etdirən R.Behrudi 90-cı illərdə yaradıcılığının yeni mərhələsinə daxil olur. Onun yaradıcılığında sərbəst şeir yeni bir intonasiya ilə yanaşı poetik emosionallıq qazanır. Ölçülü şeirlə yanaşı, sərbəst şeirin

---

[54] Səmədoğlu, V. Günün vaxtı //–Bakı: -Gənclik, -1972. –s.44-45.

bir çox nümunələrində yazan şair müstəqillik illərində "Yer üzü görüş yeridi", "İblis mələkdən gözəldi", "Din sevdim din üstünə", "Bir dəli ayrılıq kimi" və s. şeirlər kitablarını dərc etdirmişdir. R.Behrudi həm hecada, həm də sərbəstdə yazmasına baxmayaraq, onun poetik dili, bədii mətnin estetik informasiya yükü, demək olar, bir-birinə yaxındır. Onun digər şeirlərində olduğu kimi, sərbəst şeirlərində də türkün yaddaşı, Allah, Tanrı, Həyat, Tale, Dar ağacı, Tövbə, Cəhənnəm, Sevgi, İblis kimi obrazlar üstünlük təşkil edir və bu şeirlərin məzmununu əhatələyir. Onun bu şeirlərini poetik dualar da adlandırmaq olar. Elə şairin özü də bir kitabında bunu etiraf edərək yazır: *"Şairlər Tanrının sevib seçdiyi adamlardı. Tanrı onları bəndəlikdən çıxarıb özgə tale yazdı. Yazdı ki, ona pıçıltı ilə dua oxusunlar. Onlar da bunun əvəzində Tanrının sirrini açmağa can atdılar"*[55].

E.Başkeçidin sərbəst şeirlərində poetik mətnin intonasiya fonu bir qədər də intensivləşir, sabit (konstant) səs vahidləri artan və yüksələn intervallarla davamlı bir hərəkət trayektoriyası cızır. Bu şeirlərdə təkcə poetik mətnin daxili strukturu dəyişmir, həm də məzmun qatında özünü göstərir. Şeirin leksikonunda qədim, yaxud arxaik sözlərin işlənilməsi onu klassik anadilli poeziyaya və Dədə Qorqud şeirinə yaxınlaşdırır. E.Başkeçidin sərbəst şeirləri kontekstində ikinci bir xüsusiyyət isə sərbəst şeirin ritmində nəsr komponentlərinin daxil olmasıdır. Lakin bədii mətndəki fikir təsvir olunan hadisələrin obrazlı inikasını zəiflətmir, oxucunun duyğu və düşüncələrini aydınlaşmış şəkildə ifadə edir:

*yenə də hər şeyi oxuya bilmirsən, gördün ki,*
*axşamın birrəngli, birmənalı üzündən*
*və kirimişcə (hətta bir qədər mütiliklə deyərdim),*
*cismini yatağa uzadırsan-*
*(onsuz da bu ömrü yaşaytıb tükətmək mümkün deyil,*
*başına belə sovursan)*[56].

Rəşad Məcidin sərbəst şeirlərində fərqli bir istiqamət gözə çarpır. Onun şeirlərinin üslubunda nağılvari təhkiyə forması başlıca yer tutur.

---

[55] Behrudi, R. Din sevdim din üstünə //– Bakı: -Orxan, -2003. –s.6.
[56] Başkeçid, E. Panoptikum // – Bakı: -Mütərcim, -2006. – s.10.

Sadə struktur üzərində qurulan poetik mətndə fikir qütbləri fəal və intensiv şəkildə görümlüləşir, yəni detallar üzərindən obrazlı əyaniləşməyə doğru gedir. Bu cür poetik təhkiyə texnikası sərbəst şeirin inşasında yeni yol açır. Şairin bədii dilindəki bu cür orijinal memarlıq prinsipi onun inşasında yaradıcı quruculuğa xidmət edir

4-cü fəslin sonuncu **"Sərbəst şeirdə modernizm və postmodernizmin təzahürləri"** paraqrafında ən yeni mərhələdə sərbəst şeirə gələnlərin yaradıcılığı tədqiq olunur. Kamal Abdulla, Vaqif Bayatlı Odər, Adil Mirseyid, Həmid Herisçi, Rəşad Məcid, Səlim Babullaoğlu, Qulu Ağsəs, Etimad Başkeçid, Murad Köhnəqala, Dəyanət Osmanlı, Zahir Əzəmət, Əjdər Ol, Azad Yaşar, Qəşəm Nəcəfzadə, Şaiq Vəli, Rasim Qaraca, İbrahim İbrahimli, Xanəmir, Aqşin Yenisey, Könül Həsənqulu və b. onlarla şairin sərbəst şeirləri bu poetik formanın yeni yolunu müəyyənləşdirmişdir. Bunlara bəzən modernist şairlər də deyirlər. Əslində modernizm yalnız 90-cı illər ədəbi hadisəsi olmayıb, öz başlanğıcını 80-ci illərdən götürmüşdür. Tənqidçi V.Yusiflinin fikrincə, yeni modernist şairlər əvvəlkilərdən fərqlənir: "Keçən əsrin 90-cı illərinin sonu-yeni əsrin ilk illərindən başlayaraq modernist şeir təmüyülü yenidən poeziyamızda güclənməyə başladı... 60-cı illərin modernistlərindən fərqli olaraq "yeni" modernistlər poeziyada tək-tük yox, dəstə halında peyda oldular"[57].

Sərbəst şeirdə poetik forma dəyişiklikləri V.Bayatlı Odər, A.Mirseyid, Dəyanət Osmanlı, M.Köhnəqala, H.Herisçi, S.Babullaoğlu və b. yaradıcılığında daha aydın görünür. Məsələn, Adil Mirseyidin şeirləri son dərəcə orijinal struktura və poetik ideyaya malikdir. Hiss və duyğuların rəssam kimi rəngini verməyi bacarır. Səlim Babullaoğlunun şeirləri də poetik ənənəvi sərbəst şeir standarlarına cavab vermir. M.Köhnəqala və H.Herisçinin şeirlərində postmodernizm elementləri üstünlük təşkil edir. Yeni sərbəst şeirçilər şeirdə azadlığa daha çox meyil edir, şeirin daxili poetik imkanlarını zənginləşdirir, qrammatik quruluşlara üstünlük verir, alliterasiya, assonans, intonasiya, ahəng, vurğu kimi komponentlərə meyil edirlər. Doğrudur, bu dövrdə yazılan bəzi poetik parçalar yalnız təcrübə xarakteri daşıyır, poetik ömrü az olur.

---

[57] Yusifli, V. Poeziyanın yolları və illəri (1960-2000-ci illər) //– Bakı: -Mütərcim, -2009. –s. 356.

A.Mirseyid 90-cı illərdə öz poetik yolunu müəyyənləşdirir və tam olaraq fərdi üslubunu formalaşdırır. Nəşr edilən iki şeir kitabının ikisi də 90-cı illərə aiddir. "Güzgüdəki adam" və "Bulud adam" şeirlər kitablarından sonra "Vernisaj adam", "Ay süvarisi", "Amor Fati" şeirlər kitabını nəşr etdirib. Bu müddətdə şeirləri ingilis, fransız, rus, ispan, eston və s. dillərə tərcümə edilmişdir. Onun şeirləri mövzu və ideyasına görə istər özündən əvvəlki, istərsə də müasirlərinin şeirlərindən fərqlənir. Şair şeirlərində demək olar, durğu işarələrindən istifadə etmir, şeirdə səs quruluşuna, yeni və orijinal bədii təsvir və ifadə vasitələrinə böyük əhəmiyyət verir. Durğu işarələrindən istifadə etmədiyi üçün şeirdə intonasiya əhəmiyyətli rol oynayır və durğu işarələrini intonasiya əvəz edir. Doxsanıncılar yaradıcılığında şeirlərinin xüsusi intonasiya təşkil etdiyi şairlərdən biri kimi, modernizmə, fransız rəssamlığına meyili aşkar görünür. A.Mirseyid şeirlərində tablo yaratmaq, portret qurmaq, insan peyzajları sərgiləmək başlıca yer tutur. Təsvir və ifadə vasitələri ilə rəssamlığın ifadə vasitələri qovuşuq şəkil alır. "Pəncərə ağac", "bulud bahar" epitetləri bir tablo yaradır:

*bahar bulud ağac pəncərə*
*tənhalıq rəsmlər fırçalar rənglər*
*vaxtın qanı damcı damcı damır güzgüyə*
*rənglərə fırçalara rəsmlərə ağ kətana*
*yaradandan küsmüşəm*
*məni xilas elə ana*[58].

Modernizm 90-cı illər ədəbiyyatında yalnız A.Mirseyid poeziyası ilə təmsil olunmayıb, Dəyanət Osmanlı, Həmid Herisçi, Murad Köhnəqala, Səlim Babullaoğlu və b. yaradıcılığı ilə davam etmişdir. Onların poeziyasında ənənəvini modern üsullarla davam etdirmək, predmeti əksetdirmənin yeni formalarını tapmaq, yeni poetik ifadə çalarları, obrazları və vasitələri yaratmaq tendensiyası üstünlük təşkil edir. Dəyanət Osmanlı ədəbiyyata yenilikçi mistik poeziyanın "2+M" ədəbi cərəyanının yaradıcılarından biri kimi gəldi. Elə ilk şeirlərində mistik gerçək dünyanın vəhdəti, hissləri, duyğularının yaşantılarından

---

[58] Mirseyid, A. Bulud adam //– Bakı: -Vektor, -1996. –s.25.

doğmuş orijinal poetik düşüncələrini ortaya qoydu. Şair özü bu poetik yaşantılarını "Ağ şeirlər" adlandırırdı.

Postmodernizm əlamətlərini Rasim Qaraca, Zahir Əzəmət, Xanəmir, Həmid Herisçi, Aqşin Yenisey, İbrahim və başqa bu kimi şairlərin yaradıcılığında da rast gəlmək mümkündür. Onların şeirlərində həyata, dünyaya, ölümə münasibətdə fərqli bir yanaşma vardır, lakin diqqət etdikdə bu deformasiyanın realist şairlərin münasibətinin tərs üzü olduğunu görmək o qədər də çətin deyil. Onların müraciət etdiyi formalar da çox zaman ənənəvi olsa da, bədii təsvir və ifadə vasitələrinin yeniliyi, poetik bölgülərin, situasiyaların fərqliliyi və sonluğun gözlənilməz nəticə ilə bitməsi baş verir.

Sonuncu fəsildə əldə edilən müddəalar müəllifin aşağıda dərc edilmiş məqalələrində öz əksini tapmışdır.[59]

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqatın ümumi məzmunundan doğan müddəalar və yekun qənaətlər ümumiləşdirilmişdir:

-Azərbaycan sərbəst şeiri poetika baxımından da zəngin və mürəkkəb bir yol keçmişdir. Sərbəst şeirin fərdi üslub, forma, məzmun, bədii ifadə vasitələri cəhətdən tərəqqi xüsusiyyətləri də bu mərhələlərə görə dəyişmiş və yenilənmişdir.

-1920-1930-cu illər Azərbaycan ədəbi prosesinə daxil olan sərbəst şeir bütün yeniliklər kimi müəyyən etirazlara səbəb olsa da, heca ilə

---

[59] Vaqif Səmədoğlu sərbəst şeirlərində yeni struktur və assosiativlik. Filologiya məsələləri. AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutu. //– Bakı, 2018, №20, s. 223-231; Müstəqillik ərəfəsi və dövrü sərbəst şeirin yeni mərhələsi kimi //– Bakı Dövlət Universiteti. "Dil və ədəbiyyat" Beynəlxalq elmi-nəzəri jurnalı //– Bakı, 2022, s. 508-511; Yeni dövr Azərbaycan sərbəst şeirində poetik görümlülük //– Bakı Qızlar Universitetinin Elmi əsərləri. Bakı, 2022, № 2 (50), s. 30-37; Müstəqillik dövrü sərbəst şeirində modernizm və postmodernizmin təzahürləri. Gəncə Dövlət Universiteti. Elmi xəbərlər jurnalı. Gəncə, 2022, №2, s. 249-256; Müstəqillik ərəfəsi Azərbaycan sərbəst şeirinin yeni mərhələsi kimi. Pedaqoji Universitetin xəbərləri //– Bakı, 2022, №2, s. 26-36; Q.Nəcəfzadənin sərbəst şeirlərində söz və fikir axtarışları. Bakı Dövlət Universiteti. "Dil və ədəbiyyat" Beynəlxalq elmi-nəzəri jurnalı //– Bakı, 2023; Unity of form and content in development of Azerbaijani free poetry. Colloquium-journal //– Warszawa, Polska. № 6 (165), p. 51-57, 2023; və s.

bərabər addımlamış və az müddətdə yerini, mövqeyini möhkəmləndirmişdir.

-Azərbaycan sərbəst şeirinin ədəbi prosesə daxil olması ilə onun nəzəri məsələləri də müzakirə mövzusuna çevrilmişdir. Ədəbi prosesdə sərbəst şeirin gələcəyi ilə bağlı bəzi pessimist və ziddiyyətli fikirlər səslənsə də, M.Hüseyn, M.Rəfili, M.Rzaquluzadə və Ə.Nazim kimi tənqidçilər sərbəst şeiri yeni poetik forma kimi təqdir edilmişdir.

-Azərbaycan sərbəst şeirinin ilkin formalaşma mərhələsində türk şairi Nazim Hikmətin ədəbi prosesdə rolu böyük olmuşdur.

-Azərbaycan sərbəst şeirinin ilk təşəkkül mərhələsində İ.Hikmət, Ə.Nazimin çap etdirdiyi şeirlər futurist şeir adı ilə dəyərləndirilmişdir. Sərbəst şeirinin ilkin dövrünün ən böyük nümayəndəsi M.Rəfili olmuşdur.

-Azərbaycan sərbəst şeirinin ən böyük nümayəndəsi R.Rza həm də bu formanın təşəkkül dövründən tutmuş 80-ci illərinə qədər müxtəlif mərhələlərdə yalnız iştirak etməmiş, həm də onun yolunu və istiqamətini müəyyənləşdirmişdir.

-Azərbaycan sərbəst şeirinin ən çətin dövrü repressiya illərindən sonrakı mərhələdir. Bu mərhələdə, demək olar, sərbəst şeir ədəbi prosesdən geri çəkilir. Müharibənin başlaması ilə bu proses 50-ci ilə qədər davam edir.

-Sərbəst şeir 60-cı illərdə yeni mərhələyə daxil olur; bu mərhələni şərtləndirən faktorlardan biri R.Rza yaradıcılığı, digəri isə yaradıcılığa yeni başlayan gənclərin bu formaya meyil etməsi idi.

-Azərbaycan sərbəst şeirinin 60-80-ci illər poetikası zənginləşir, ifadə formaları çoxalır. Şeirə gələn qüvvələr yeni üslub formalaşdırır və sərbəst şeir monoton qəlibdən çıxaraq çoxsəslilik qazanır. Sərbəst şeir dil, üslub, ritm, ahəng, intonasiya və s. cəhətdən dəyişir və yeniləşir.

-Müstəqillik ərəfəsi və dövrü Azərbaycan sərbəst şeiri özünün yeni inkişaf mərhələsinə çatmışdır. Poeziya bu dövrdə janr poetikası baxımından da dəyişir və poeziyada modernizm və postmodernizmin təzahürləri formalaşır.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıda qeyd olunan elmi işlərində əksini tapmışdır:**

1. Azərbaycan sərbəst şeiri ətrafında mübahisələr // – Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Bakı Slavyan Universiteti. Bakı, 2016, s. 137-143.
2. Sərbəst şeirin Mikayıl Rəfili mərhələsi // – Filologiya məsələləri. AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutu. Bakı, 2016, s. 296-301.
3. Azərbaycan sərbəst şeirinin formalaşmasında Nazim Hikmət faktoru // – Sivilizasiya. Bakı Avrasiya Universiteti. Bakı, 2018, cild 7 say 4(40), s.128-135.
4. Azərbaycan sərbəst şeirinin Rəsul Rza mərhələsi // – Humanitar elmlərin öyrənilməsinin aktual problemləri.Bakı Slavyan Universiteti. Bakı, 2018, №5, s.86-93.
5. Ələkbər Salahzadə sərbəst poeziyanın görkəmli nümayəndəsi kimi // – Filologiya məsələləri. AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutu. Bakı, 2018, №19, s. 228-237.
6. Vaqif Səmədoğlu sərbəst şeirlərində yeni struktur və assosiativlik // – Filologiya məsələləri. AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutu. Bakı, 2018, №20, s. 223-231.
7. İsa İsmayılzadə assosiativ şeirin nümayəndəsi kimi. // – Beynəlxalq Elmi Konfrans.Bakı, 2018, s. 58-60.
8. Azərbaycan sərbəst şeirinin 40-50-ci illər mərhələsi və onun inkişaf yolu // – Bakı Slavyan Universiteti. Elmi əsərlər.Bakı, 2019, № 2, s. 216-221.
9. Səməd Vurğun yaradıcılığında sərbəst şeir // – Bakı Dövlət Universiteti, Dil və ədəbiyyat. Beynəlxalq Elmi- nəzəri jurnal. Bakı, 2019, №4 (112), s. 113-116.
10. Azərbaycan sərbəst şeirinin poetika məsələləri // – Bakı: 2019.
11. STAGES OF A FREE VERSE IN AZERBAIJAN POETRY./- İtaliya Florensiya "Ponte" (Thomson Reuters). 2019, Vol.75 No.61, p. 59-70.
12. Верлибр в творчестве Микаила Мушвига // – «Вестник» Московского Государственного Лингвистического Университета, гуманитарные науки, 7 (823). 2019, с.167-179.

13. ISA ISMAYILZADE AS A REPRESENTATIVE OF ASSOCIATIVE POETRY // – International Peer-Reviewed and Open Access Electronic Journal Uluslararası Hakemli ve Açık Erişimli Elektronik Dergi, Türkiyə. 2019, s. 177-184.
14. Sərbəst şeirin yaranması və formalaşması məsələləri. // – "Filoloji Elmlər İnnovativ Tədqiqatlar Kontekstində" adlı Beynəlxalq elmi-praktik onlayn konfrans. Bakı Slavyan Universiteti. Bakı, 24 dekabr, 2020, s. 170-173.
15. Sərbəst şeirin nəzəri inkişaf problemlərinə dair // – Azərbaycan Elm Mərkəzi, Respublika Elmi Konfransı. Bakı, 2021, s. 17-19.
16. Azərbaycan sərbəst şeirinin axtarış mərhələləri və Nazim Hikmət yaradıcılığı // – Filologiya və Sənətşünaslıq. Azərbaycan Milli Elmlər Akademiyası. Bakı, 2021, № 1, s. 125-130.
17. Azərbaycan sərbəst şeirində Əli Kərim faktoru // – AMEA-Poetika. izm. Bakı,2021, s. 96-103.
18. Проблемы Формирования Индивидуального Поэтического Стиля В Вольной Поэзии // – Сборник научных статей по итогам работы Международного научного форума НАУКА И ИННОВАЦИИ СОВРЕМЕННЫЕ КОНЦЕПЦИИ, Москва, 2021. с. 62-69.
19. Bəxtiyar Vahabzadə sərbəst şeirinin məna və üslub imkanları // – Beynəlxalq elmi jurnal 1.518 Yüksək İmpakt Faktorlu. Bakı, 2021, s 89-94.
20. Müstəqillik ərəfəsi və dövrü sərbəst şeirin yeni mərhələsi kimi // – Bakı Dövlət Universiteti. "Dil və ədəbiyyat" Beynəlxalq elmi-nəzəri jurnalı. Bakı, 2022, s. 508-511.
21. Yeni dövr Azərbaycan sərbəst şeirində poetik görümlülük// – Bakı Qızlar Universitetinin Elmi əsərləri.Bakı,2022,№ 2(50), s. 30-37.
22. Müstəqillik dövrü sərbəst şeirində modernizm və postmodernizmin təzahürləri // – Gəncə Dövlət Universiteti. Elmi xəbərlər jurnalı. Gəncə,2022, №2, s. 249-256.
23. Müstəqillik ərəfəsi Azərbaycan sərbəst şeirinin yeni mərhələsi kimi // – Pedaqoji Universitetin xəbərləri. Bakı, 2022, №2, s. 26-36.
24. Azərbaycan sərbəst şeirinin səksəninci illər mərhələsinin inkişaf problemləri //– V Uluslararası Beşeri ve Eğitim Bilimleri Kongresi

materialları. 18-20 oktyabr, 2022.
25. Azərbaycan sərbəst şeirində struktur və kompozisiya yeniliyi // – Filologiya məsələləri. Bakı,2023,№ 1, s. 420-428.
26. Изменения поэтической формы в свободных стихах Адиля Мирсейида // – Инновационные подходы в современной науке: Сборник статей по материалам CXXXMI Международной конференции «Инновационные подходы в современной науке». Москва,2023, №4(136), с.89-96.
27. Azərbaycan sərbəst şeirinin ritm, intonasiya, ahəng baxımından inkişafında Fikrət Qoca yaradıcılığı // – Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Bakı Slavyan Universiteti. № 1, Bakı,2023.
28. Q.Nəcəfzadənin sərbəst şeirlərində söz və fikir axtarışları // – Bakı Dövlət Universiteti. "Dil və ədəbiyyat" Beynəlxalq elmi-nəzəri jurnalı. Bakı, 2023.
29. Ramiz Rövşənin sərbəst şeirlərində poetik ovqat və novatorluq // – Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Bakı, 2023.
30. Unity of form and content in development of Azerbaijani free poetry // – Colloquium-journal Warszawa, Polska. № 6 (165), p. 51-57, 2023.
31. Azərbaycan Sərbəst Şeirində Azadlıq, Müstəqillik Duyğularının Təzahürü // – X. BEYNƏLXALQ TÜRK DÜNYASI ARAŞDIRMALARI SİMPOZİUMU (14-16 İyun 2023 Almatı). № 1, s. 725-730.
32. Sərbəst şeirdə üslubi zənginliklər və həyat hadisələrinin fəlsəfi dərki // – Mingəçevir Dövlət Universiteti. Beynəlxalq elmi-konfrans toplusu. 2023.

Dissertasiyanın müdafiəsi __10__ __oktyabr__ 2024-cü il tarixində saat 12:30 AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.05 – Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1143. Bakı, Hüseyn Cavid prospekti, 115, Akademiya şəhərciyi, Əsas bina, IV mərtəbə, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron akt zalı

Dissertasiya işi ilə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat __17__ __iyul__ 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 24.05.2024

Kağız formatı: A5

Həcm: 76060

Tiraj: 100